15 may 2024 №36-37 (2102) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

# Şuşada musiqi "cəng"i – xalqların sənət çələngi

## "Arzumuz budur ki, heç vaxt bu səma altında bir daha top səsləri eşidilməsin"

Şuşa Azərbaycanın bir çox dahi mədəniyyət xadimlərinin vətənidir. Şuşada doğulmuş, burada boya-başa çatmış görkəmli mədəniyyət xadimləri bizim qürur mənbəyimizdir. Şuşa nəinki Azərbaycanda, bütövlükdə Qafqaz bölgəsində və daha böyük coğrafiyada tarixən mədəniyyət ocağı kimi tanınırdı. Şuşanın mədəniyyət xadimlərinin fəaliyyəti hər zaman böyük diqqət cəlb edirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sözləri mayın 11-də Şuşanın Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimində çıxışı zamanı deyib.

Mədəniyyətimizin paytaxtı, söz-sənət beşiyi Şuşa 2024-cü ildə "İslam dünyasının mədəniyyət paytaxtı" missiyasını da daşıyır. Bununla bağlı qərar ötən ilin 25-26 sentyabrında Qətərin paytaxtı Dohada İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında qəbul olunub. Prezident İlham Əliyev ötən ilin noyabrında "Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. Builki "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının proqramı da İslam dünyası ölkələri arasında mədəni əlaqələrin inkişafına töhfə olaraq xüsusi tərtib edilmiş, sənət bayramına ICESCO ölkələrindən ifaçılar və yaradıcı kollektivlər dəvət olunmuşdu.

Festivalın və "Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik, müxtəlif ölkələrdən nazirlər, digər rəsmi qonaqlar, diplomatlar iştirak ediblər.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

Şuşa şəhərinin "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunması haqqında qərara görə ICESCO-ya, onun rəhbərliyinə, təşkilata üzv ölkələrə təşəkkürünü bildirən Prezident İlham Əliyev deyib ki, biz bunu İslam dünyasının Azərbaycana növbəti dəstəyinin, hörmətinin əlaməti kimi qəbul edirik: "Birinci dəfə deyil ki, Azərbaycan şəhəri bu şərəfli ada layiq görülür. 2009-cu ildə Bakı, 2018-ci ildə isə Naxçıvan şəhəri də "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilmişdi. Bu dəfə isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa bu şərəfli adı daşıyacaq".

Azərbaycanın İslam dünyasında həmrəyliyin gücləndirilməsi üçün böyük səylər göstərdiyini deyən İlham Əliyev vurğulayıb ki, ölkəmizdə bir çox beynəlxalq tədbirlər, musiqi festivalları, mədəni tədbirlər keçirilir. Şuşa şəhərinin İslam dünyasının mədəniyyət paytaxtı olması bizə əlavə imkan verəcək ki, öz mədəniyyətimizi həm müsəlman ölkələrinin ictimaiyyətinə, həm də dünya ictimaiyyətinə çatdıraq.








### Mədəniyyət paytaxtımız həm də qəhrəmanlıq, zəfər və sülhün rəmzidir

Prezident daha sonra deyib: "Biz 28 il Şuşasız yaşayırdıq. Həm şuşalılar, həm bütün Azərbaycan xalqı bu illəri mənəvi əzab illəri kimi öz yaddaşlarında saxlayırlar və saxlayacaqlar. Dünən (10 may – red.) Şuşa şəhərinin dirçəldilməsi istiqamətində növbəti addım atılmışdır, ilk sakinlər uzun fasilədən sonra öz doğma şəhərinə qayıdıb burada məskunlaşmışlar. Şuşanın tarixi simasının bərpası istiqamətində fəal işlər gedir. Şuşa, sözün əsl mənasında, dirçəlir. Şuşanın bir çox tarixi və dini abidələri işğal dövründə işğalçılar tərəfindən tamamilə dağıdılmışdır. Hazırda dörd məscid yenidən qurulub, digər məscidlərdə təmir-bərpa işləri aparılır.

Bu işğala baxmayaraq, Şuşa öz ruhunu – Azərbaycan ruhunu qoruyub saxlaya bildi. Biz Şuşa azad olunandan sonra Şuşaya qayıtdıqda bir daha hər birimiz bunu görmüşük və dəfələrlə görürük. Şuşaya gələn hər bir insan əyani şəkildə görür ki, burada Azərbaycan ruhu var. Şuşa işğal, əsarət dövründə əyilmədi və biz – Azərbaycan xalqının nümayəndələri Şuşaya qayıtmalı idik. Qan tökərək, şəhidlər verərək, – Allah bütün şəhidlərimizə rəhmət eləsin, – Şuşanın azad edilməsi, şəhər döyüşləri nəticəsində azad edilməsi tariximizin parlaq səhifəsidir.

Qeyd etdiyim kimi, Şuşa mədəniyyət ocağı kimi tanınsa da, hazırda, eyni zamanda, qəhrəmanlıq rəmzidir, zəfər rəmzidir və sülhün rəmzidir. Çünki məhz Şuşanın azad olunmasından sonra işğalçılar tam anladılar ki, müqavimət göstərmək onlara heç nə verməyəcək və beləliklə, bu gün biz Şuşanı tam haqlı olaraq sülhün rəmzi kimi qiymətləndirə bilərik".

davamı səh. 2-də

# Heydər Əliyev Fondu və ICESCO arasında memorandum imzalanıb

Mayın 11-də Şuşada Heydər Əliyev Fondu və ICESCO arasında əməkdaşlığa dair memorandum imzalanıb.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malikin imzaladığı memorandum mədəniyyət, elm və təhsil, yeni texnologiyaların inkişafı sahələrində təcrübə mübadiləsinin aparılmasını, eyni zamanda birgə layihələrin icra olunmasını nəzərdə tutur.

İmzalanmadan öncə keçirilən görüşdə ICESCO ilə Heydər Əliyev Fondu arasında mövcud əlaqələr müzakirə edilib.

Fondun prezidenti Mehriban Əliyevanın ICESCO-nun xoşməramlı səfiri kimi sivilizasiyaların yaxınlaşması, mədəniyyətlərarası dialoq üzrə fəaliyyəti və xidmətləri vurğulanıb. Fondun təhsil və mədəniyyətin inkişafına, Azərbaycanla yanaşı, digər ölkələrdə humanitar sahədəki layihələri, xalqlar və dinlərarası yaxınlaşmaya yönələn fəaliyyəti qeyd olunub. İmzalanan memorandumun əməkdaşlığın gələcək uğuruna zəmin yaradacağı bildirilib.

Heydər Əliyev Fondunun 2024-cü il üzrə "İslam dünyasının mədəniyyət paytaxtı" seçilən Şuşada tarixi-dini və mədəni abidələrin qorunması, bərpası istiqamətində apardığı işlərin mədəni-tarixi irsin yaşadılması baxımından əhəmiyyəti qeyd olunub. Bu sahədə də ICESCO ilə əməkdaşlıq imkanları nəzərdən keçirilib.

ICESCO-nun baş direktoru Şuşada tarixi-dini abidələri ziyarət edib, işğal zamanı törədilmiş erməni vandalizminə dair faktlarla tanış olub.

# Üzeyir Hacıbəylinin Şuşadakı ev-muzeyi bərpa olunur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşada Üzeyir Hacıbəylinin Ev-Muzeyində aparılan bərpa işləri ilə tanış olublar.

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verilib.

Bildirilib ki, Heydər Əliyev Fondu Şuşa şəhərində Üzeyir Hacıbəylinin Ev-Muzeyində bərpa işlərini davam etdirir. Üzeyir Hacıbəylinin evi Şuşada XIX əsrdə inşa olunub. Bina 1959-cu ildə ev-muzeyi kimi fəaliyyətə başlayıb. Üzeyir Hacıbəylinin Ev-Muzeyi Şuşa şəhəri işğal edilən tarixədək fəaliyyət göstərib. Muzeydə dahi bəstəkarın həyat və yaradıcılığı ilə bağlı 1700 eksponatdan erməni işğalçı qüvvələrinin vəhşiliyi nəticəsində yalnız 136-sı salamat qalıb, digərləri məhv edilib.



Məlumat verilib ki, binadakı bərpa işlərinə evin ilkin görünüşünə uyğun olaraq analizlərin hazırlanması, bünövrələrin möhkəmləndirilməsi, döşəmənin, fasadların və dam örtüyünün bərpası, daxili və xarici bəzək işləri, qapıların, pəncərələrin, mühəndis-kommunikasiya sistemlərinin quraşdırılması, həmçinin həyətyanı sahənin yaşıllaşdırılması işləri daxildir. Bu günədək bərpa layihəsinin hazırlanması, ərazidə mövcud divar daşlarının sökülərək, ölçülərinə görə inventarlaşdırılması, dağılmış hissələrdə bünövrələrin qazılması və sahənin ümumi təmizlənməsi işləri aparılıb. Həmçinin material analizi üzrə nümunələr götürülərək Türkiyədəki laboratoriyada tədqiq edilib, konservasiya və restavrasiya hesabatları yerinə yetirilib.

davamı səh. 2-də

# Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzinin 11 yaşı münasibətilə konsert



Vyanada Azərbaycan Mədəniyyət Mərkəzinin yaradılmasının 11-ci ildönümünə həsr olunmuş konsert keçirilib.

Mərkəzin rəhbəri Leyla Qasımova ötən müddətdə həyata keçirilən layihə və tədbirlərdən söz açıb. Bildirib ki, Azərbaycan mədəniyyətinin Avstriyada təqdimatında və iki ölkə arasında mədəni əlaqələrin inkişafında mühüm rol oynayan mərkəz eyni zamanda Azərbaycan dilinin həm əcnəbilər, həm də Avstriyada yaşayan soydaşlarımızın övladları üçün tədrisi ilə bağlı kurslar təşkil edir.

Konsertdə Avstriyada yaşayan azərbaycanlı musiqiçilər Abuzər Manafzadə (fortepiano), Günel Şirinova (soprano) və Ümid Gürci (bariton) Azərbaycan bəstəkarlarının əsərləri və xalq mahnılarından ibarət proqramla çıxış ediblər. A.Manafzadə yeni işıq üzü görmüş "İnsomnia" albomundan bir neçə əsər səsləndirib və imzalı diski Azərbaycan Mədəniyyət Mərkəzinə təqdim edib.

# Tarı ilk dəfə ayaq üstə ifa etmişdi...

Mayın 13-də Beynəlxalq Muğam Mərkəzində (BMM) tanınmış tarzən, pedaqoq, Əməkdar artist, professor Həmid Vəkilovun 75 illik yubileyinə həsr olunan xatirə tədbiri keçirilib.

Gecədə çıxış edən BMM-in direktoru Əməkdar artist Sahib Paşazadə, Xalq artistləri Vamiq Məmmədəliyev, Ağaverdi Paşayev sənətkarın həyat və yaradıcılığından, musiqi mədəniyyətimizin inkişafındakı xidmətlərindən söz açıblar. Bildirilib ki, tar ifaçılığında ənənə və novatorluqdan bəhs edilərkən Həmid Vəkilovun adı xüsusi hörmətlə yad edilir. Bu gün bir çox tarzənlər onun ifaçılıq xüsusiyyətlərindən bəhrələnir, qoyduğu yolu davam etdirirlər. Milli musiqi sənətimizdə öz dəst-xətti ilə seçilən Həmid Vəkilov tarı ilk dəfə ayaq üstə ifa edərək yeniliyə imza atıb.




1966-cı ildə isə Həmid Vəkilov tarın diapazonunu 2,5 oktavadan tam 4 oktavaya qədər genişləndirərək alətin kəllə hissəsini yeni sistemlə əvəz edib.

davamı səh. 3-də

# Apellyasiya müraciətlərinin nəticələri açıqlanıb

Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) 2023-cü il iyulun 18-də elan etdiyi film layihələri müsabiqəsinin qaydalarına əsasən yaradılan Apellyasiya komissiyasına müraciət olunan film layihələri ilə bağlı yekun nəticələr açıqlanıb.

Kommersiya potensialı olan layihələrin 50 faiz və ya daha çox hissəsinə ARKA tərəfindən investor kimi maliyyə dəstəyinin göstərilməsinə qərar verilib.

səh. 7



"Xarıbülbül"ün Laçında konsertləri

səh. 3



"Kuraj ana və uşaqları" Şəki səhnəsində

səh. 4

# Şuşada musiqi “cəng”i – xalqların sənət çələngi

## “Arzumuz budur ki, heç vaxt bu səma altında bir daha top səsləri eşidilməsin”



*əvvəli səh. 1-də*

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, builki “Xarıbülbül” festivalı Şuşanın “İslam dünyasının mədəniyyət paytaxtı” elan olunmasına həsr edilib: “Bu gün bir çox müsəlman ölkələrinin kollektivləri bizim üçün müqəddəs olan Cıdır düzündə öz məharətlərini ifadə edəcəklər. Bu, birlik bayramı olacaq, bu, həmrəylik bayramı olacaq. Eyni zamanda, Azərbaycan xalqının əyilməz ruhunu nümayiş etdirən bu məkan həm işğala qədər, həm işğal dövründə, həm də işğala son qoyulandan sonra hər birimiz üçün doğma və əzizdir. Bizim qəhrəman əsgər-zabitlərimiz, bax, bu sıldırım qayalara dırmaşaraq yüngül silahlarla şəhəri düşməndən azad etmişlər.

Əminəm ki, bundan sonra Azərbaycan torpaqlarında daim sülh olacaq. Arzum budur, əminəm, bütün Azərbaycan xalqının arzusu budur ki, qoy, heç vaxt bu səma altında bir daha top səsləri eşidilməsin. Qoy, bundan sonra burada ancaq musiqi sədaları səslənsin”.

***

ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik mərasimdə çıxış edib. Çıxışına Şuşanın tərənnümü ilə başlayan qonaq deyib: “O, sanki əzəmətli dağlarının zirvələrinə yüksəlib ki, yeni nailiyyətini fəxrlə bildirsin. 2021-ci ildə Azərbaycanın mədəniyyət paytaxtı oldu. 2023-cü ildə isə o, “Türk dünyasının mədəniyyət paytaxtı” seçildi. Amma 2024-cü ilin bu günündə o, İslam dünyasının mədəniyyət paytaxtı kimi özünəməxsusluq bayrağını və dühasını daşıyır.





Hər dəfə əhatə genişlənir, coğrafiya böyüyür. Üç il mədəniyyət paytaxtı adına layiq olan az sayda belə şəhər var. Bu, dərin bir işarədir. Bu, nailiyyətə, imkanlara və ehtirama işarədir. Bu, Şuşa şəhəridir – paklıq, saflıq və xoş ab-hava şəhəri. Şəhərin adı da elə buradan gəlir. Bizlərdən kimsə dünyada adı saflığa və təmizliyə uyğun gələn başqa şəhər tanıyırmı? Buranın havası təmiz, insanların hissləri pakdır. Buna görə də təəccüblü deyil ki, Şuşa bütünlüklə Qafqazda musiqinin paytaxtıdır, təsviri sənətin məkanıdır, gözəl Azərbaycan xalçasının vətənidir, musiqi, fikir və şairlər yurdudur”.

ICESCO rəhbəri qeyd edib ki, Şuşanın mütəfəkkirləri, yaradıcı insanları şəhərin Qafqaz müsəlman kimliyini öz qələmlərində daşımışlar: “Onun zənginliyinə aşiq olmuş mütəfəkkirləri, şairləri, sənətkarları yaddaşlara əbədi həkk olmuşdur. Biz bunlara şairlər Xurşidbanu Natəvanı, Molla Pənah Vaqifi, Qasım bəy Zakiri, xanəndə Cabbar Qaryağdıoğlunu, ifaçı Mirzə Sadıqı, yazıçı Nəcəf bəy Vəzirovu, bəstəkar Üzeyir Hacıbəylini, dramaturq Əbdürrəhim bəy Haqverdiyevi, mütəfəkkir Əhməd Ağaoğlunu və başqalarını aid edə bilərik. Dünən böyük xanəndə Bülbülün evində olanda divarlar, mebellər, ağacların kölgələri dil açıb bizə deyirdi ki, bu ev Şuşada keçmişlə indinin əlaqəsini göstərir, övladların ata-babalarının irsi ilə əlaqəsini sübut edir, enməyən bir bayrağa işarə edir”.

Salim bin Məhəmməd əl-Malik Şuşa şəhərində aparılan genişmiqyaslı quruculuq-abadlıq işlərində Birinci vitse-prezident, ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd edib. Bildirib ki, Şuşanın otuzillik işğaldan azad edilməsini ICESCO da sevinclə qarşılayıb: “Azərbaycan xalqını sevindirən onu da sevindirdi. Buna görə də təşkilat vədlərinə sadiq qaldı. ICESCO fəxr edir ki, Prezident İlham Əliyev onun planlarını və Azərbaycanla bağlı proqramlarını dəstəkləyir və təşkilat da öz növbəsində ona öz vəfa borcunu yerinə yetirir. Azərbaycanın zəkalı oğulları ICESCO-da fəaliyyət göstərir, orada təcrübəli ekspertlər kimi çalışırlar”.

Baş direktor ICESCO-nun Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə irs missiyası




göndərən ilk beynəlxalq təşkilat olduğunu da xüsusi vurğulayıb. “Təşkilat bundan sonra da Azərbaycanla olan özünəməxsus etibarlı əlaqələrinə sadiq qalacaq, onun yanında olacaq, onun sivilizasiyada tutduğu yolu müdafiə edəcək, sevinc və qürur anlarını onunla birlikdə qeyd edəcək. Onun oğullarının və qızlarının həyata keçirdiyi quruculuq işlərini dəstəkləyəcək. Paklıq ətrinin və saflıq müşkünün daşıyıcısı olan şuşalı İslam dünyası mübarək olsun. Onun sevgisini bölüşən, hər zaman onu görməyə can atan İslam dünyalı Şuşaya eşq olsun!”.

***

Çıxışlardan sonra açılış konserti keçirilib.

“Xarıbülbül”ün bütün iştirakçılarının yer aldığı açılış kompozisiyasının müşayiəti ilə Qarabağ atından ibarət süvari dəstə ICESCO-ya üzv ölkələrin bayraqları ilə Cıdır düzünə daxil olub.

Qeyd edək ki, Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən festivala ICESCO-ya üzv ölkələrdən Birləşmiş Ərəb Əmirlikləri, İndoneziya, İran, Qazaxıstan, Qətər, Qvineya, Mərakeş, Özbəkistan və Türkiyədən ifaçı və kollektivlər qatılıb.

Açılış konsertində Azərbaycandan Xalq artistləri Arif Babayev, Gülyanaq Məmmədova, Polad Bülbüloğlu, Zeynəb Xanlarova, Zülfiyyə Xanbabayeva, Əməkdar artistlər Sevda Ələkbərzadə, Rəşad İlyasov, Qazaxıstandan Əməkdar artist Əlişer Kərimov, Qvineyadan Aboubakar Silla, Özbəkistandan Xalq artisti Nəsibə Abdullayeva, Türkiyədən Hüsnü Şənləndirici, həmçinin “Aşıqlar qrupu”, Azərbaycan Dövlət Rəqs Ansamblı, “Natiq” ritm qrupu, Birləşmiş Ərəb Əmirliklərindən “Almazyood”, İndoneziyadan “Sendja Community”, Qətərdən “Qılınc rəqqasları”, Mərakeşdən “Tizwit” qrupları, Özbəkistandan “Navbahor” Mahnı və Rəqs Ansamblı, Türkiyədən “Anadolu atəşi” rəqs qrupu və digərləri çıxış ediblər.

Konsert iştirakçıların ifasında festivalı rəmzi olaraq təcəssüm etdirən “Səsin gəlsin, Xarıbülbül” mahnısı ilə yekunlaşıb.

Festivalın konsertləri mayın 12-də Şuşada, ayın 13-də isə Laçında davam edib.

# Şuşanın yeni dövranı başlayır

## Prezident və birinci xanım şəhərə köçmüş ilk sakinlərlə görüşüblər



Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada birinci yaşayış kompleksinin açılışında iştirak edib və şəhərə köçmüş ilk sakinlərlə görüşüblər.

Kompleksdə görülən işlər barədə məlumat verilib.

Bildirilib ki, ilkin mərhələdə birinci yaşayış kompleksinə köç qrafikinə əsasən 20 ailə (88 nəfər) köçürülüb. İyirmi üç binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Kompleksin təməli 2021-ci il avqustun 29-da qoyulub. Yaşayış kompleksi 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı və 7-si beşotaqlı olan 450 mənzildən ibarətdir.

Dövlətimizin başçısı və birinci xanım yaşayış kompleksində və mənzillərdə yaradılan şəraitlə tanış olub, Şuşaya köçən ailələrlə görüşüblər.

Görüşdə çıxış edən Prezident İlham Əliyev vurğulayıb ki, bu gün Şuşanın yeni tarixi başlayır: “Mən 2020-ci il noyabrın 8-də xalqa müraciətimdə demişdim ki, biz Şuşanı dirçəldəcəyik. Bax, bu gün biz dirçəldilən Şuşanı görürük. Təkcə bu gözəl binalar deyil, Şuşada çox genişmiqyaslı quruculuq işləri gedir. Bu gün Ulu Öndərin doğum günündə üçüncü yaşayış kompleksinin təməli qoyuldu. Keçən il mayın 10-da ikinci yaşayış kompleksinin təməli qoyulmuşdur. Bu birinci yaşayış kompleksində 450, ikincidə 300-ə yaxın, üçüncüdə isə 500-ə yaxın mənzil inşa ediləcək. Onun bir hissəsi artıq hazırdır. Bu gün siz bu mənzillərə köçəcəksiniz. Bütün evlər gözəl memarlıq üslubunda – Şuşanın ənənəvi üslubunda inşa edilmişdir. Şərait çox gözəldir və əminəm ki, uzun fasilədən sonra şuşalılar burada rahat yaşayacaqlar, yaradacaqlar, quracaqlar, öz doğma şəhərinin tarixi simasını qoruyacaqlar...”.

Qeyd edək ki, mayın 14-də Şuşa şəhərinə daha 38 ailə (136 nəfər) köçürülüb.

# Üzeyir Hacıbəylinin Şuşadakı ev-muzeyi bərpa olunur

*əvvəli səh. 1-də*

Muzeyin memarlıq, konstruksiya həlli və mühəndis-kommunikasiya sistemləri üzrə işçi layihələri yekunlaşıb, bünövrənin armaturlanması icra olunub. Ev-muzeyinin daxilində divarlar və arakəsmələr hörülüb, döşəmənin bərpası işləri görülüb. Həmçinin həyətyanı sahədə tarixi görkəmə uyğun hörgü işləri və dekorativ elementlərin qoyulması başa çatdırılıb. 2022-ci ildə başlanan bərpa işləri yekunlaşandan sonra muzeydə ekspozisiya qurulacaq.

# Mədəniyyət paytaxtımızda tarixi irsin əzəli siması özünə qaytarılır

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşada Mamayı məscidinin bərpadan sonra açılışında iştirak ediblər.

Məlumat verilib ki, Heydər Əliyev Fondu tərəfindən “PAŞA Holdinq”in dəstəyi ilə məsciddə və məscid ərazisindəki bulaqda aparılan bərpa işlərinə 2023-cü ildə başlanılıb. Mamayı məscidi şəhərin mərkəzi hissəsində yerləşən Mamayı məhəlləsində XIX əsrin sonlarında tikilib. Məscid sovet hakimiyyəti illərində poeziya evi kimi də fəaliyyət göstərib. Şəhərin digər məhəllələri kimi burada da məscid, bulaq, kiçik meydan və hamam olub. İşğal dövründə məscid və onun yanında yerləşən bulaq yararsız hala salınıb. Erməni işğalçıları bulağın daşlarının üzərinə erməni və rus dilində yazılmış lövhə, xaç işarəsi də həkk etmişlər. Aparılan bərpa işləri nəticəsində bu saxtakarlığın izləri aradan qaldırılıb.

***

Prezident və birinci xanım Şuşada “Şirin su” hamamının bərpadan sonra açılışında da iştirak ediblər.

Bildirilib ki, Heydər Əliyev Fondu tərəfindən “Şirin su” hamamında 2022-ci ildən aparılan bərpa işləri başa çatıb. “Şirin su” hamamı 1880-ci ildə inşa edilib. Vaxtilə şəhərin digər hamamlarında ərazilərdəki şor quyu sularından istifadə olunurdu. Bu hamam isə Xan qızı Xurşidbanu Natəvanın Şuşaya çəkdirdiyi şirin su ilə təchiz edilib. Buna görə də hamam “Şirin su” hamamı adlandırılıb. Şuşa şəhəri 1992-ci ildə ermənilər tərəfindən işğal edildikdən sonra “Şirin su” hamamında abidənin memarlıq üslubuna aid olmayan dəyişikliklər edilmiş, əlavə tikintilər aparılmış, hamam yararsız vəziyyətə salınmışdı.



Avstriyanın “Wehdorn Architekten” şirkətinin mütəxəssislərinin iştirakı ilə aparılan bərpa işləri zamanı ilkin hamama aidiyyəti olmayan hissələr söküləb, bütün xarici və daxili hissələr – fasad, dam, qapı-pəncərə sistemi, döşəmə, tavan bərpa edilib.

***

Prezident və birinci xanım Şuşada Aşağı Gövhər ağa məscidində aparılan bərpa işləri ilə tanış olublar.

Bərpa işləri Heydər Əliyev Fondu tərəfindən “PAŞA Holdinq”in dəstəyi ilə həyata keçirilir. Layihəyə Avstriya, İtaliya, Latviya və Türkiyədən olan mütəxəssislər cəlb olunub. XIX əsrdə Kərbəlayı Səfixan Qarabağinin memarlığı ilə ərsəyə gələn Aşağı Gövhər ağa məscidi İbrahim xanın qızı Gövhər ağa tərəfindən Şuşada inşa etdirilmiş məscidlərdən birincisi sayılır. Şuşanın işğalı zamanı Aşağı Gövhər ağa məscidi erməni vandalizminin qurbanına çevrilmişdi. Məscidin binası və minarələri ermənilərin zirehli texnikalarının atəşlərinə məruz qalaraq ciddi zədələnmişdi.

Məscidin minarələri bərpa olunub, dam və döşəmə örtükləri dəyişdirilməklə bir sıra təmir işləri həyata keçirilir. Bərpa işləri eyni zamanda mədrəsə bölməsini də əhatə edir.

Qeyd edək ki, indiyədək Şuşada Heydər Əliyev Fondu tərəfindən Yuxarı Gövhər ağa, Saatlı məscidləri, eləcə də Mehmandarovların malikanə kompleksi ərazisindəki məscid bərpa edilib və 2023-cü ilin may ayında istifadəyə verilib.

# Azərbaycan və Türkiyə teatrlarının əməkdaşlıq perspektivləri müzakirə edilib

Ölkəmizin Türkiyədəki səfirliyinin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi Dövlət Teatrlar Baş İdarəsinin müdiri Tamer Karadağlı ilə görüşüb.



Dövlət Teatrlar İdarəsində keçirilən görüş zamanı Tamer Karadağlı ölkələrimiz arasında mədəniyyət və teatr sahəsində əməkdaşlığın əhəmiyyətindən danışıb, Ankarada Azərbaycan Mədəniyyət Mərkəzinin yaradılmasının buna töhfə verəcəyinə inandığını söyləyib. Ölkəmizə səfərindən də danışan Karadağlı Azərbaycan mədəniyyətinin onda böyük maraq doğurduğunu qeyd edib.

Azərbaycan Mədəniyyət Mərkəzinin mühüm layihələr həyata keçirəcəyini deyən Samir Abbasov gələcəkdə keçiriləcək mədəniyyət günləri çərçivəsində teatr truppalarının qarşılıqlı çıxışlarının dəstəklənməsi, rejissorların və artistlərin qarşılıqlı mübadiləsi ilə bağlı fikirlərini bölüşüb.

Söhbət zamanı iki ölkənin teatrları arasında əlaqələrin inkişafı, Azərbaycan müəlliflərinin əsərlərinin Türkiyədə teatr səhnələrində tamaşaya qoyulması, bu istiqamətdə təcrübə mübadiləsi, qarşılıqlı səfərlərin reallaşdırılması, memorandumların imzalanması barədə təkliflər verilib. Samir Abbasov Türkiyədə hər il keçirilən “Mədəniyyət Yolu” festivalında da Azərbaycan teatrlarının iştirakı ilə əlaqədar iş aparılacağını bildirib.

Görüşdə birgə layihələrin həyata keçirilməsinə dair planın hazırlanması razılaşdırılıb.

# Kazanda “Rusiya – İslam dünyası” forumu

14–19 may tarixlərində Tatarıstan Respublikasının paytaxtında ”Rusiya – İslam dünyası: Kazan-Forum” XV Beynəlxalq İqtisadi Forumu keçirilir.

Forumun əsas məqsədi Rusiya regionları ilə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ölkələrinin iqtisadi-ticari, elmi-texniki, sosial və mədəni əlaqələrinin möhkəmləndirilməsidir. Tədbirin proqramı 125 tematik sessiyadan ibarətdir.

Mayın 14-də forum çərçivəsində “Kazan” aqrosənaye parkında “Kazan Halal Market” beynəlxalq halal məhsullar sərgisi açılıb. Mayın 16-da forum çərçivəsində islam maliyyələşdirməsi sahəsində ekspertlərin görüşü keçiriləcək.

Proqramda İƏT ölkələrinin gənc sahibkarlar və gənc diplomatlar forumları, gənc aşpazların turniri və digər tədbirlər yer alıb.

# “Xarıbülbül” festivalının ikinci günü

## Azərbaycan, Özbəkistan və Qvineya ritm ustalarının konserti

Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən “Xarıbülbül” VII Beynəlxalq Musiqi Festivalı mayın 12-də Şuşada Cıdır düzündə konsert proqramları ilə davam edib.







Açıq səma altında, əsrarəngiz təbii “dekorasiya” fonunda qurulmuş səhnəyə bu dəfə Azərbaycanın, Özbəkistanın və Qvineyanın ritm ustaları çıxıblar.

Xalq artisti Natiq Şirinovun rəhbərlik etdiyi “Natiq” ritm qrupunun çıxışı rəngarəng performansla yadda qalıb. Qrup “Qaytağı”, “Qaval rəqsi”, “Bir qəlbdə iki ruh” və tamaşaçı rəğbəti qazanmış digər kompozisiyaları ilə yanaşı, məhz bu konsert üçün hazırladığı yeni nömrələri ifa edib.

Konsertdə “Natiq” ritm qrupu ilə yanaşı, Özbəkistanın Əməkdar artisti Abbos Qasımovun rəhbərlik etdiyi “Abbos” qrupu və Qvineyadan gəlmiş ritm ustası Abubakar Silla bir-birindən maraqlı, yaddaqalan nömrələr təqdim ediblər.

Natiq Şirinov və Abbos Qasımovun təqdimatında Azərbaycan və Özbəkistan dostluğunu tərənnüm edən musiqi nömrələri də maraqla qarşılanıb.

Təəssüratlarını bölüşən qvineyalı ifaçı Abubakar Silla deyib ki, “Xarıbülbül” festivalının nə qədər əhəmiyyətli olduğunu səhnəyə çıxarkən bir daha hiss edib: “Festival xoş təsir bağışladı. “Natiq” ritm qrupu ilə ifam zamanı onların da həyəcanını yaşadım, çox böyük ləzzət almaqla yanaşı, həm də böyük məsuliyyət daşıdım. Azərbaycandan olduqca xoş təəssüratlarla ayrılacağam və Şuşa səfərim daim yaddaşımda qalacaq. Bizdəki kimi, burada da milli musiqiyə xüsusi həssaslıqla yanaşırlar. Bu məni olduqca məmnun etdi. Çünki hər bir millət öz milli köklərinə bağlı olanda ona dünyada da hörmət bəsləyirlər”.

Konsertin yekun nömrəsi ritm ustalarının təqdimatında milli “Yallı” rəqsinin səsləndirilməsi olub. Bu ifanın sədaları altında bütün iştirakçılar bir daha xalqımızın həmrəyliyini, sülhsevərliyini nümayiş etdirərək əl-ələ tutub rəqs ediblər. Möhtəşəm ritmik ahəngi ilə böyük emosional təsirə malik olan “Yallı” təkcə musiqi-rəqs nümunəsi deyil, həmçinin xalqımızın birlik ruhunun, azərbaycançılıq məfkurəsinin sənət simvoludur.

## “Xarıbülbül” mədəniyyətləri birləşdirir

Xəbər verildiyi kimi, “Xarıbülbül” festivalında Azərbaycanla yanaşı Birləşmiş Ərəb Əmirlikləri, İndoneziya, İran, Qazaxıstan, Qətər, Qvineya, Mərakeş, Özbəkistan və Türkiyə təmsil olunur.

Cıdır düzündə qurulmuş səhnədə çıxışı alqışlarla qarşılanan qonaq kollektivlərdən biri də qardaş Özbəkistandan gəlmiş “Abbos” qrupu olub.

Qrupun yaradıcısı Abbos Qasımov artıq üçüncü dəfə Azərbaycana gəlib. O, 2015-ci ildə Şəkidə festivalda iştirak etdiklərini xatırladaraq qeyd edib ki, elə həmin vaxtdan onda Azərbaycan milli musiqisinə böyük maraq yaranıb. “Abbos” qrupunu 1998-ci ildə yaratdığını söyləyən A.Qasımov deyib ki, bir sıra ölkələrdə beynəlxalq festivallarda uğurla çıxış ediblər. İlk dəfə gəldikləri Şuşanın füsunkar təbiəti qoynunda çıxış etməsi ona xüsusi zövq verib.

Özbəkistanın “Navbahor” mahnı və rəqs ansamblının solisti Şerzod Kenjebaev də “Xarıbülbül” festivalında iştirak etməkdən məmnundur: “Festival iştirakçılara digər xalqların da adət-ənənələri ilə yaxından tanış olmaq imkanı yaradıb. Burada olarkən Azərbaycanın qədim “Yallı” rəqsini də öyrənmək imkanımız oldu”.

İndoneziyanın “Sendja Community” qrupu da festivalda öz milli musiqi nömrələri ilə çıxış edib. Qrupun üzvü Fariz bin Daniali deyib: “Azərbaycanda ilk dəfə çıxış edirik. Burada dinlədiyim musiqi əsərləri çox gözəldir. Şuşa haqqında da geniş məlumat əldə etdik. Öyrəndik ki, bu qədim diyar böyük musiqiçilərin vətənidir. Ölkənizlə bağlı maraqlı mədəni təəssüratlarım var. Qismət olarsa, yenə də gəlib böyük məmnunluqla Azərbaycanda keçirilən festivallarda iştirak edərik”.

# Mərakeş və Birləşmiş Ərəb Əmirliklərinin musiqi qrupları Şuşada





Şuşada “Xarıbülbül” VII Beynəlxalq Musiqi Festivalının ikinci günü, mayın 12-də Mərakeşin “Tizwit” və Birləşmiş Ərəb Əmirliklərinin “Almazyood” musiqi qruplarının konserti olub.

Xan qızı Natəvanın sarayı qarşısında açıq havada qurulan səhnədə hər iki qrup yaddaqalan musiqi nömrələri təqdim ediblər. Təqdim olunan rəqs və ifalarda milli adət-ənənələr, folklor nümunələri və müasir rəqs üslubları yer alıb. Çıxışlar alqışlarla qarşılanıb.

Mərakeş Krallığının Mədəniyyət Nazirliyinin nümayəndəsi xanım Nada Mxatr media mənsublarına açıqlamasında “Tizwit” musiqi qrupunun ötən əsrin 60-cı illərində yarandığını və dünyanın bir çox ölkələrində beynəlxalq festivallarda uğurla çıxış etdiyini söyləyib.

Qonaq Şuşada keçirilən festivalın onlar üçün çox maraqlı olduğunu bildirərək deyib: “Qrup bu gün konsertdə “Gül” kompozisiyasını təqdim edir. Yaradıcı heyət bu festivala ciddi hazırlaşıb və öz repertuarında olan ən maraqlı musiqi nömrələrindən ibarət buket düzəldib. İnanıram ki, qrupun çıxışı hər kəsin ürəyincə olacaq”.

O, Azərbaycanda ilk dəfə olduqlarını və Şuşanın füsunkar təbiətinin onları valeh etdiyini diqqətə çatdırıb: “Sizin çox qədim mədəniyyətiniz və bənzərsiz musiqiniz var. Burada olarkən öyrəndik ki, Şuşa Azərbaycan mədəniyyətinə dəyərli musiqi xadimləri bəxş edib. Burada olmaqdan, belə gözəl ənənələrə malik festivalda iştirak etməkdən məmnunuq. Biz Azərbaycandan çox yaxşı təəssüratla ayrılacağıq”.

# Festivalın Laçında konsert proqramları

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şuşada başlayan “Xarıbülbül” VII Beynəlxalq Musiqi Festivalı mayın 13-də Laçında “Sələflər və xələflər” adlı konsert proqramı ilə davam edib.





Azərbaycanın dilbər guşəsi Laçında davam edən festival Həkəri çayı ətrafında iştirakçıları və qonaqları bir araya gətirib.

Konsert proqramında Azərbaycanın tanınmış incəsənət ustalarının onların sənətini davam etdirən övladları, yetirmələri ilə birgə çıxışları təqdim olunub. Layihə milli musiqimizin, mədəniyyətimizin, ənənələrimizin yaşadılması üzərində qurulub. Təqdim olunan musiqi əsərlərinin bənzərsiz melodiyası ilə Həkəri çayının xəfif şırıltısı və iştirakçıların gur alqışları sanki bir vəhdət yaradıb.

Xalq artisti Azər Zeynalov sözləri Əhməd Cavada, musiqisi Emin Sabitoğluna məxsus “Şükriyyə” mahnısını övladları ilə birlikdə oxuyub. O deyib: “Builki festivalda gözəl Laçınımızda təqdim olunan “Sələflər və xələflər” layihəsi milli musiqimizə bağlı olan tanınmış ifaçıların eyni səhnəni övladları ilə bölüşməsinə böyük təkan verdi. Bu həm qürurverici, həm də böyük məsuliyyətdir”.

Açıq səma altında qurulan səhnədə bir-birini əvəz edən ifalar, musiqi nömrələri hər bir iştirakçıya unudulmaz anlar yaşadıb.

Əməkdar artist Şirzad Fətəliyevin övladı Arazla birgə milli musiqi alətimiz balaban və zurnada səsləndirdikləri “Turacı” və “Xırdaca” rəqslərimiz iştirakçıları qol qaldırıb oynamağa həvəsləndirib.

Konsert proqramı zənginliyi ilə yanaşı, həmçinin ifaçıların repertuarı və fərqli təqdimatları ilə maraq doğurub.

Sonda bütün iştirakçılar “Bura Vətəndir” mahnısını ifa ediblər.

“Sələflər və xələflər” layihəsi bir daha sübut etdi ki, ənənələr davam edir və milli musiqimizin, mədəniyyətimizin canlı klassikləri olan tanınmış ifaçıların yolu bu gün onların övladları, yetirmələri tərəfindən uğurla davam etdirilir.

***

“Xarıbülbül” VII Beynəlxalq Musiqi Festivalına mayın 13-də Laçında “Aşıq mahnıları yeni səslənmədə” adlı konsertlə yekun vurulub.

Şair-publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü İlham Qəhrəman bütün laçınlıları salamlayaraq 30 ilə yaxın davam edən Vətən həsrətinin sona yetdiyini və Laçının toylu-büsatlı günlərə qovuşduğunu böyük şükranlıqla vurğulayıb. Bildirib ki, bu gün Laçının gözəlliyi bütün görənləri valeh edir.

Şuşadan başlayan “Xarıbülbül” festivalının Laçında davam etməsini yüksək qiymətləndirən şair bunu qala-şəhərin qardaş payı kimi qiymətləndirib.

Konsertdə həmçinin Xalq artistləri Aygün Kazımova, Nazpəri Dostəliyeva, Tünzalə Ağayeva, Əməkdar artistlər Ehtiram Hüseynov, Lalə Məmmədova, Elnarə Abdullayeva və digərləri tanınmış aşıqlarımızla duet oxuyublar.

Festival bütün iştirakçıların ifasında “Bütöv Azərbaycan” mahnısının sədaları altında başa çatıb.

# Mədəniyyət naziri maldivli həmkarı ilə görüşüb

Mayın 13-də Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli ilə “Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024” ilinin rəsmi açılış mərasimi çərçivəsində ölkəmizdə səfərdə olan Maldiv Respublikasının Dhivehi dili, mədəniyyət və irs naziri Adam Nasir İbrahim arasında görüş keçirilib.



Nazir Adil Kərimli “Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024” ilinin rəsmi açılış mərasimində iştirakına görə qonağa təşəkkürünü bildirib.

Azərbaycanın Şuşa şəhərinin tarixi-mədəni zənginliklərindən söz açan nazir bu qədim şəhərin xalqımıza bəxş etdiyi görkəmli mədəniyyət və ədəbiyyat xadimləri haqqında məlumat verib.

Adil Kərimli bu il Azərbaycanın qlobal əhəmiyyətli tədbirə – BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyini diqqətə çatdırıb. Bildirib ki, COP29-da iqlim dəyişikliyinin mədəniyyət sahəsinə təsiri, habelə ətraf mühitin qorunmasında mədəniyyətin rolu məsələləri ilə bağlı xüsusi müzakirələr aparılacaq.

Adam Nasir İbrahim ölkəmizə səfərindən məmnunluğunu bildirib, “Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024” ilinin rəsmi açılışının yüksək səviyyədə təşkilinə görə təbriklərini çatdırıb.

Qonaq ölkəmizlə mədəni əməkdaşlıqda maraqlı olduqlarını deyib, mədəniyyət günlərinin təşkili ilə bağlı fikir mübadiləsi aparılıb.

# Ulu öndər ölkəmizdə muzeylərin inkişafına qayğı göstərib

Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzində Ümummilli lider Heydər Əliyevin doğum günü və 18 may – Beynəlxalq Muzeylər Gününə həsr olunmuş “Heydər Əliyev və muzeylərimiz” adlı tədbir keçirilib. Əvvəlcə Ulu öndərə həsr olunmuş videoçarx nümayiş olunub.



Mərkəzin direktoru Əməkdar mədəniyyət işçisi Zərifə Məlikova çıxış edərək Heydər Əliyevin dövlətimizin möhkəmləndirilməsi və suverenliyi uğrunda gördüyü misilsiz işlərdən söz açıb.

Uzun illər muzey sahəsində səmərəli fəaliyyət göstərən, Heydər Əliyev irsinin tədqiqatçısı Əməkdar mədəniyyət işçisi Məhəbbət Mehdiyeva Ulu öndərlə görüşlərini xatırlayıb, xalqımızın firavan, sülh və əmin-amanlıq şəraitində yaşaması üçün dahi siyasətçinin atdığı addımlardan bəhs edib.

Mərkəzin elmi işlər üzrə direktor müavini İranə İbrahimova Beynəlxalq Muzeylər Şurasının (ICOM) builki “Muzeylər, təhsil və tədqiqat” devizinə uyğun mərkəz tərəfindən təşkil edilən təlimlər, istehsalat təcrübələri barədə məlumat verib.

Sonda mərkəzin baş fond mühafizi Pakizə Almazova Ümummilli lider Heydər Əliyevin bütün sahələrə olduğu kimi, muzey sahəsinə də göstərdiyi diqqət və qayğıdan danışıb.

Tədbirdə Heydər Əliyevin muzeylərin təntənəli açılışında iştirakını əks etdirən fotolardan ibarət videoçarx nümayiş olunub. Həmin muzeylərin kolleksiyalarına daxil olan eksponatların Elmi Bərpa Mərkəzi tərəfindən bərpa və konservasiyasına dair təqdimat olub.

# Tarı ilk dəfə ayaq üstə ifa etmişdi...

## Həmid Vəkilovun 75 illiyinə həsr olunan xatirə gecəsi

*əvvəli səh. 1-də*

Qeyd olunub ki, tarzən özü tar ilə simfonik orkestr üçün bir neçə əsər yazıb. Bunlardan simfonik orkestr üçün “Şıdırğı” və “Çılğın” əsərləri, 3 hissəli “Konsert” və başqalarının adını çəkmək olar.



Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, sənətkar haqqında sənədli filmin müəllifi Səadət Təhmirazqızı bildirib ki, müasir dövrümüzdə tar aləti ifaçılıq sənətimizdə böyük əhəmiyyət kəsb edir. Bu baxımdan Həmid Vəkilov sənətkarlığı, ifaçılıq mədəniyyəti də gələcək nəsillərə ötürülərək əbədi yaşayacaq.

Tədbirin bədii hissəsində görkəmli tarzənlər H.Vəkilovun bəstələdiyi əsərləri səsləndiriblər.

Gecədə həmçinin BMM tərəfindən H.Vəkilovun “Tar və simfonik orkestr üçün Konsert №2” (tar və fortepiano üçün klavir) əsərinin çap edilmiş not variantı da təqdim edildi. Əsər ilk dəfə 2023-cü ildə Azərbaycan Dövlət Akademik Filarmoniyasında simfonik orkestrin müşayiəti ilə Əməkdar artist Sahib Paşazadə tərəfindən ifa olunub.

Qeyd edək ki, Həmid Şamil oğlu Vəkilov 23 yanvar 1949-cu ildə Bakı şəhərində anadan olub. Uşaq yaşlarından musiqiyə maraq göstərib. 1962-ci ildə Bülbül adına Musiqi məktəbinə daxil olub. 1967-ci ildə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına (indiki BMA) qəbul olunub. 1972-ci ildə təhsilini əla qiymətlərlə başa vurub.

Tarzən 1979-cu ildə Leninqradda (Sankt-Peterburq) keçirilən estrada artistlərinin 6-cı Ümumittifaq müsabiqəsinin laureatı olub. Zəngin repertuara malik olan musiqi xadimi Azərbaycanda və bir sıra ölkələrdə solo konsertlər verib. 1987-ci ildə “Əməkdar artist” fəxri adına layiq görülüb.

H.Vəkilov 1992-ci ildən Türkiyədə ifaçı və pedaqoq kimi fəaliyyət göstərib. 2010-cu ildə vətənə qayıdan tarzən Milli Konservatoriyada çalışıb. 2020-ci ilin 16 noyabrında vəfat edib.

**Lalə**

№36-37 (2102)
15 may 2024
www.medeniyyet.az

# Mədəniyyətimizin böyük himayədarı



Bölgələrdə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə bağlı müxtəlif səpkili tədbirlər təşkil edilib.

Füzuli rayonu Heydər Əliyev Mərkəzində (Horadiz şəhəri) "Ulu öndər Heydər Əliyev və Azərbaycan" adlı tədbir keçirilib. Tədbirdə "Dahi şəxsiyyət" sənədli filmi nümayiş olunub. Heydər Əliyevin Füzuli rayonuna səfərləri haqqında ətraflı söhbət açılıb. Müasir Azərbaycanın inkişaf strategiyasının, eləcə də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qazandığı böyük Zəfərin təməlində Heydər Əliyevin uzaqgörən siyasətinin dayandığı vurğulanıb. Bədii hissədə rayon mədəniyyət müəssisələrinin hazırladığı konsert proqramı təqdim olunub.

***

Xocalı rayon Yaloba kənd Tarix-Diyarşünaslıq Muzeyi və Kosalar kənd Mədəniyyət evinin (Göygöl rayonu, Bəstə qəsəbəsi) birgə təşkilatçılığı ilə "Xalqın xilaskarı" adlı tədbir keçirilib. Çıxışlarda Ulu öndərin xalqımız və dövlətimiz qarşısında xidmətlərindən danışılıb, onun həyatı və siyasi fəaliyyətini əks etdirən fotostendlərə baxış keçirilib.

***

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS və Bəşir Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzi tərəfindən "Heydər Əliyev irsi milli sərvətimizdir" adlı tədbir keçirilib. Ulu öndərə həsr olunmuş videoçarx nümayiş etdirilib. Tədbir rayon Mədəniyyət Mərkəzi tərəfindən hazırlanmış "Yaşa, mənim xalqım!" adlı konsert proqramı ilə davam edib.

Xaçmaz şəhər Uşaq incəsənət məktəbi və rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Xatirələrdə yaşayan öndər" adlı tədbir keçirilib. Mərkəzin foyesində Xaçmaz şəhər Uşaq incəsənət məktəbi Rəssamlıq şöbəsi şagirdlərinin rəsm əsərləri nümayiş etdirilib.

***



Dağlıq Şirvan RMİ və İsmayıllı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayon Mədəniyyət Mərkəzində Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilmiş konsert keçirilib. Əvvəlcə mərkəzin foyesində Ulu öndərin həyat və fəaliyyətini əks etdirən kitab və rəsm əsərlərindən ibarət sərgiyə baxış olub. Konsertdə Ulu öndərə həsr edilmiş musiqilər və şeirlər səsləndirilib, rəqs nömrələri ifa edilib.

Mirzə Ələkbər Sabirin Şamaxıdakı ev-muzeyində də "Heydər Əliyev irsinin öyrənilməsi və təbliği" mövzusunda tədbir təşkil edilib.

***

Şəki şəhər Heydər Əliyev Mərkəzində Ulu öndərin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş şəhər müəssisə və təşkilatlarının əməkdaşlarından ibarət komandalar arasında intellektual yarış keçirilib. Şəki şəhər 2 nömrəli Uşaq musiqi məktəbinin "Xarıbülbül" komandası I, 4 nömrəli Uşaq musiqi məktəbinin "Balero" komandası II, şəhər MKS-nin "Səma" komandası isə III yerə layiq görülüb. Qalib komandaya diplom və kubok təqdim edilib.

Qəbələ rayon Mədəniyyət Mərkəzində Ümummilli liderin 101-ci ildönümünə həsr olunmuş Qəbələ rayon Uşaq incəsənət məktəbinin hesabat konserti təşkil edilib. Məktəbin xorunun, xalq çalğı alətləri ansamblının, fortepiano, xanəndəlik, xoreoqrafiya sinfi şagirdlərinin ifasında müxtəlif janrlarda musiqilər səsləndirilib.

***

Mərkəzi Aran RMİ-nin təşkilatçılığı ilə regional idarənin xidmət əhatəsinə aid olan şəhər və rayonlarda fəaliyyət göstərən mədəniyyət müəssisələrinin əməkdaşları arasında keçirilən "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" adlı bilik yarışının final mərhələsi gerçəkləşib. Ağdaş rayon Heydər Əliyev Mərkəzində keçirilən finala 7 rayondan komandalar qatılıb. Göyçay rayonu üzrə "Akkord" komandası I, Ucar rayonundan "Xəzinə" komandası II, Ağdaş rayonu üzrə "Xəzinə" komandası isə III yeri qazanıb.

***









Şərqi Zəngəzur RMİ-yə tabeli müəssisələrdə Ulu öndərin anadan olmasının 101-ci ildönümü münasibətilə silsilə tədbirlər təşkil olunub. Çıxışlarda qeyd edilib ki, müstəqil, qüdrətli Azərbaycan Ümummilli lider Heydər Əliyevin şah əsəridir. Tədbirlər konsert proqramı ilə davam etdirilib.

***

Saatlı rayonu üzrə fəaliyyət göstərən mədəniyyət müəssisələrinin iştirakı ilə "Əvəzolunmaz lider" adlı ümumrayon tədbiri keçirilib. Tədbirdə rayon Mədəniyyət Mərkəzinin əməkdaşları, Bülbül adına Uşaq musiqi məktəbi müəllimlərinin ifasında vətənpərvərlik ruhlu musiqilər ifa olunub.

İmişli rayon Mədəniyyət Mərkəzində təşkil edilən tədbirdə Ulu öndərin həyatı və siyasi fəaliyyətindən bəhs olunub. Daha sonra konsert proqramı təqdim olunub.

***



Şirvan şəhər Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə orta ümumtəhsil məktəblərinin V-XI sinif şagirdləri arasında keçirilən "Heydər Əliyev və bütöv Azərbaycan" adlı şeir qiraəti müsabiqəsinə yekun vurulub. Müsabiqənin qalibləri mükafatlandırılıb.

Şirvan Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə "Heydər Əliyev – 101. Yaşıllıq naminə həmrəylik" mövzusunda tədbir keçirilib.

Şirvan şəhər Mədəniyyət Mərkəzində isə "Azərbaycan tarixinə adını qızıl hərflərlə yazdıran dahi lider" adlı konsert təşkil edilib. Qiraət olunan şeirlər, rəqslər və musiqilər tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Hacıqabuldakı Heydər Əliyev Mərkəzində "Xəmsə" intellektual oyununun final mərhələsi keçirilib. Şəhər məktəblərindən 50 şagirdin iştirak etdiyi oyunda qalib komandalar diplomlarla mükafatlandırılıb.

Hacıqabul rayon Mədəniyyət Mərkəzində "Xalqa həsr olunmuş ömür" adlı konsert proqramı keçirilib. Biləsuvar şəhər Orxan Əkbərov adına Uşaq incəsənət məktəbinin şagirdlərinin çıxış etdiyi konsert alqışlarla qarşılanıb.

***

Samux rayon Heydər Əliyev Mərkəzində Əməkdar rəssam Mübariz Əkbərovun əl işlərindən ibarət "Azərbaycan mədəniyyətinin himayədarı – Heydər Əliyev" adlı sərgi təşkil edilib. Rəssamın əl işlərinin ideya-sənətkarlıq məziyyətlərindən danışılıb. Əl işləri içərisində "Şah İsmayıl qılıncı", "Zəfər qılıncı", "Turan qılıncı" və s. əsərlər ziyarətçilərin marağına səbəb olub.

***

Qazax rayon MKS tərəfindən "Günəş ömürlü insan" adlı kitab bayramı keçirilib. Mədəniyyət mərkəzinin qarşısında keçirilən tədbirdə bir-birindən maraqlı musiqi nömrələri, bədii qiraət, çıxışlar və kompozisiyalar təqdim edilib.

Şəmkir rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev irsi milli sərvətimizdir" adlı tədbir təşkil edilib.

Gədəbəy Aşıq Məktəbində rayon mədəniyyət müəssisələrinin birgə təşkilatçılığı ilə "Yaşayır Ulu öndər, yaşayır qəlbimizdə" adlı konsert proqramı təqdim edilib. Uşaq incəsənət məktəbinin şagirdləri, Aşıq məktəbinin kollektivi və Mədəniyyət Mərkəzinin əməkdaşlarının hazırladığı musiqi nömrələri maraqla qarşılanıb.

***

Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar Ordubad rayon Mədəniyyət Sarayında fotosərgi açılıb. "Sehrli Ordubad" adlı sərgidə peşəkar fotoqraf Aydın Mehdiyevin rayonun təbii gözəlliklərini, tarixi-mədəni irsini əks etdirən şəkillər nümayiş olunub.

***

Lənkəran şəhər Heydər Əliyev adına Xatirə parkında Lənkəran-Astara RMİ və Lənkəran-Astara RGİİ-nin təşkilatçılığı ilə Heydər Əliyevin anadan olmasının 101-ci illiyinə həsr edilən rəsm əsərləri və fotoşəkillərdən ibarət sərgi keçirilib. Lənkəran Uşaq rəssamlıq məktəbi və "ZZ Art Center" rəsm kursunun birgə sərgisində fərqlənən müəlliflər diplom və təşəkkürnamələrlə təltif ediliblər.

Astara Dənizkənarı Park Bulvar Kompleksində rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "Sən elə bir zirvəsən" adlı konsert proqramı keçirilib. Mədəniyyət mərkəzinin solistləri və "Sevinc" mahnı və rəqs ansamblı çıxış edib. Tədbir atəşfəşanlıqla yekunlaşıb.

***

"Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğu tərəfindən "Heydər Əliyev və tarixi-mədəni irsimiz" adlı viktorina keçirilib. Ağstafa şəhər Heydər Əliyev prospektində və "Keşikçidağ" qoruğunun inzibati binası önündə keçirilən viktorinada qaliblərə qoruğun hədiyyələri təqdim edilib.

**Hazırladı: N.Məmmədli**

## "Gəncləşən muğam"

Sumqayıtdakı Muğam Mərkəzində "Gəncləşən muğam" layihəsinin növbəti konserti təqdim edilib. Layihənin budəfəki konserti Ulu öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü və Heydər Əliyev Fondunun yaranmasının 20 illiyinə həsr olunub.



Konsert layihənin rəhbəri Xalq artisti, professor Mənsum İbrahimov, Xalq artisti, tarzən Elçin Həşimov, Əməkdar artistlər xanəndə Təyyar Bayramov, kamança ifaçısı Elnur Əhmədov və başqa ifaçıların iştirakı, Sumqayıt Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə gerçəkləşib.

Vurğulanıb ki, "Gəncləşən muğam" layihəsi Azərbaycan mədəniyyətinin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması məqsədi daşıyır.

Tanınmış muğam ifaçılarının çıxışları alqışlarla qarşılanıb.

## "Musiqi kimliyimiz"də Aşıq Şəmşir yad olunacaq



Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası Mədəniyyət Nazirliyi və Azərbaycan Aşıqlar Birliyinin dəstəyi ilə "Musiqi kimliyimiz" layihəsini növbəti dəfə təqdim edəcək.

20-22 may tarixlərində reallaşacaq layihə XX əsr Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, Əməkdar incəsənət xadimi, el havaları və dastanların mahir ifaçısı Aşıq Şəmşirin (1893–1980) xatirəsinə həsr olunacaq.

## "Hər yanı gülşən Azərbaycan" – xor müsabiqəsi başa çatıb

Mədəniyyət Nazirliyinin dəstəyi, Mil-Muğan və Mərkəzi Aran RMİ-lərin birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Hər yanı gülşən Azərbaycan" adlı III Regional xor müsabiqəsi haqqında məlumat vermişdik.

Müsabiqənin final mərhələsi mayın 7-də Mingəçevir şəhərindəki Heydər Əliyev Mərkəzində təşkil edilib. Tədbirdə Mərkəzi Aran RMİ-nin rəisi Aydın Bəşirov, Mil-Muğan RMİ-nin rəisi Faiq Xudanlı, şəhər İcra Hakimiyyətinin məsul şəxsləri, mədəniyyət işçiləri iştirak ediblər.



Final mərhələsində hər iki RMİ üzrə fəaliyyət göstərən 6 uşaq musiqi və incəsənət məktəbinin xor kollektivlərinin çıxışlarını Azərbaycan Dövlət Xor Kapellasının bədii rəhbəri Xalq artisti Gülbacı İmanova, Azərbaycan Dövlət Uşaq Filarmoniyasının direktoru Əməkdar incəsənət xadimi Dilarə Əliyeva və Bakı Musiqi Akademiyasının dosenti, Əməkdar müəllim Aqil Qafulov qiymətləndiriblər.

Kürdəmir şəhər Uşaq incəsənət məktəbi Qran-pri mükafatını, Mingəçevir şəhər Üzeyir Hacıbəyli adına 1 nömrəli onbirillik Musiqi məktəbi I, Ağdaş şəhər 1 nömrəli Uşaq musiqi məktəbi II, Göyçay şəhər Arif Məmmədov adına Uşaq musiqi məktəbi isə III yeri qazanıblar. Beyləqan rayon Niyazi adına Uşaq musiqi məktəbi və Mingəçevir şəhər Bülbül adına 2 nömrəli Uşaq musiqi məktəbi isə diploma layiq görülüb.

Qaliblər mayın 16-da Saatlı rayon Mədəniyyət Mərkəzində təşkil olunacaq qala-konsertdə mükafatlandırılacaq.

## "Kuraj ana və uşaqları" Şəki səhnəsində



Mayın 12-də Şəki Dövlət Dram Teatrında alman ədibi Bertolt Brextin (1898–1956) "Kuraj ana və uşaqları" pyesi əsasında səhnələşdirilmiş eyniadlı tamaşanın premyerası olub.

Tamaşaya teatrın baş rejissoru Əməkdar incəsənət xadimi Mirbala Səlimli quruluş verib. Quruluşçu rəssam Mustafa Mustafayev, geyim üzrə rəssamı Sahib Əhmədov, bəstəkarı Firudin Allahverdi, mahnıların bəstəkarı Xatirə Orucova, baletmeysteri Çingiz Novruzəliyevdir.

Əsər Avropada baş verən Otuzillik müharibədən (1618–1648) bəhs etsə də, əslində, müəllifin özünün də iştirakçısı olduğu Birinci Dünya müharibəsi və ondan sonrakı bütün müharibələr haqqındadır.

Kuraj ana müharibə zamanı övladlarını itirsə də, həyata olan baxışını dəyişmir. Bütün müharibələrdə itkilərin olmasına rəğmən, əsərdə Kuraj ananın simasında insanlığın mahiyyəti, müharibədə qazananların əsl siması əks olunur.

Tamaşada rolları Əməkdar artistlər Xanlar Həşimzadə, Əbülfət Salahov, Rəhim Qocayev, aktyorlar Lalə Məmməd, Arzu Mustafayeva, Elvin Mabudov, Rəsul Məmmədrəhimov, Nərmin Abbasova, Aytac İsmayılzadə, Pərviz İsmayılov, Xəyal Salahov, İlkin Rüstəmov və başqaları ifa edirlər.

## Qax kuklaçıları səfərdə



Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə davam edən ölkədaxili qastrollar çərçivəsində Qax Dövlət Kukla Teatrı mayın 11-də Gəncə şəhərində olub.

Yaradıcı kollektiv Gəncə Dövlət Kukla Teatrının səhnəsində yazıçı-dramaturq Əzizə Əhmədovanın "Necə boz ayı, aldı ev payı?" nağıl-tamaşasını göstərib.

Tamaşanın quruluşçu rejissoru Əməkdar artist Yusif Abdurahmanov, quruluşçu rəssamı Fidan Səbrili, musiqi tərtibatçısı Nicat Fətəliyevdir.

Uşaqlara zəhmətsevərlik, dürüstlük və özünəinam aşılayan ibrətamiz tamaşa alqışlarla qarşılanıb.

# "Anadolu atəşi" bu dəfə Cıdır düzündə "yandırdı"...

## Türkiyənin məşhur rəqs qrupu "Xarıbülbül" festivalında



11–13 may tarixlərində Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Xarıbülbül" VII Beynəlxalq Musiqi Festivalında müxtəlif ölkələrdən gəlmiş kollektivlər tamaşaçılara yüksək sənət zövqü yaşadıb.

Festivalın birinci günü Şuşada, Cıdır düzündə səhnəyə çıxan kollektivlərdən biri də Türkiyənin dünyaca məşhur "Anadolu atəşi" rəqs qrupu olub.

Türkiyəli rəqqaslar ilk dəfə qatıldıqları "Xarıbülbül" festivalında yüksək performans nümayiş etdiriblər. Qrupun çıxışları tamaşaçıların alqışları ilə müşayiət olunub.

1999-cu ildə Mustafa Ərdoğanın rəhbərliyi ilə yaradılmış "Anadolu atəşi"nin ilk adı "Rəqsin sultanları" olub. Doxsan nəfər gənc rəqqasla fəaliyyətə başlayan qrup 2002-ci ildən dünya turuna başlayıb, indiyədək 90-dan çox ölkədə ümumilikdə 3 mindən çox şou-proqram göstərib. Məşhur kollektiv bir neçə dəfə Azərbaycanda da qastrolda olub.

Anadoluda qovuşan Şərq və Qərb mədəniyyətlərinin təcəssümü olan rəqs qrupu bu torpaqların zəngin sənət irsini dünyaya tanıtmaqdadır.



***

Qeyd edək ki, festivalın birinci günündə Cıdır düzündəki səhnədə instrumental ifaçılar – Hüsnü Şənləndirici (Türkiyə) və Hüseyn Məhəmmədoğlu (Azərbaycan), Serkan Çağrı (Türkiyə) və Orxan Musayev (Azərbaycan), eləcə də Sənəm Abdolazimzadeh (İran) və Rəşad İlyasovun (Azərbaycan) iştirakı ilə konsert proqramları da təqdim edilib.

# Ulu öndər Heydər Əliyevin əziz xatirəsinə

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə müxtəlif tədbirlər, konsertlər keçirilir. Bu tədbirlərin çərgəsində Əməkdar artist, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Akademik Opera və Balet Teatrının solisti İlham Nəzərovun Milli İncəsənət Muzeyində təşkil etdiyi konserti xüsusi vurğulamaq istərdik.

Mayın 8-də keçirilən "İlham Nəzərovun tələbə və məzunları" adlı konsertin proqramı Ulu öndərin Azərbaycan və xarici bəstəkarların yaradıcılığından sevdiyi nümunələr – operalardan ariyalar, duetlər və mahnılardan ibarət idi.

Heydər Əliyev geniş musiqi biliyinə malik idi. O, azərbaycanlı bəstəkarların yaradıcılığı ilə daima maraqlanar və onlara dəstək olardı. Bu diqqətin nəticəsi olaraq yeni əsərlər yaranır və Azərbaycan musiqi mədəniyyətinin incisinə çevrilirdi.

Konsert Q.F.Hendelin "Yuli Sezar" operasından duet və ariyalarla başladı. Əməkdar artistin yetirmələri Nuray İsmayılova (soprano), Tofiq Zeynalov (kontratenor), Sevinc Ağayeva (kontralto) barokko dövrü musiqisinin ifaçılıq incəliklərini təfsirləri ilə çox gözəl nümayiş etdirə bildilər. Q.Donisetti və C.Rossininin operalarından ariyaları oxuyan İsmayıl Əsədli və Kənan Rəhmanzadə isə bariton və bas-bariton səs tembləri ilə musiqisevərlərin zövqünü oxşaya bildilər. Süsən Abasova və Günel Binnətli C.Gerşvinin caz musiqilərinə müraciət edərək konsert proqramına rəng qatdılar.

İ.Nəzərovun 6 yaşlı qızı Fidan Nəzərli "Küçələrə su səpmişəm" xalq mahnısını səsləndirməsi ilə tamaşaçıların alqışına qərq oldu. Səhnəyə ilk addımlarını atan Fidandan sonra Ramal İbişov (bariton), Cavidan Babazadə (tenor) və Emil İsmayılov (bariton) Azərbaycan bəstəkarlarının (Ü.Hacıbəyli, C.Cahangirov, S.Rüstəmov, T.Quliyev, M.Maqomayev və b.) musiqi nümunələrini ifa etdilər.

Dövlət Akademik Musiqili Teatrının solisti Sübhan Rüstəmov tenor səsinin incəliklərindən mükəmməl şəkildə faydalanaraq Ü.Hacıbəylinin "Arşın mal alan" operettasından ariya, duet və Sevil Əliyevanın "Ana" mahnısının gözəl təfsirinə nail ola bildi.



Konsertin uğurlu keçməsində mütləq şəkildə konsertmeysterlərin rolunu vurğulamaq lazımdır. Svetlana Əhmədova, İlahə İsmayılova, Nərgiz Eyyubova və Aydan Cəfərovanın müşayiəti vokal ifaçıları üçün ilham mənbəyinə çevrilirdi.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının baş müəllimi İlham Nəzərovun tələbə və şagirdləri dərs ili ərzində müxtəlif konsert salonlarında maraqlı proqramla çıxış ediblər. Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə həsr edilmiş yekun konsert də bu silsilənin sənət çələngi oldu.

**Yulizana Kuxmazova**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# Qara Qarayevin vəfatının ildönümündə məzarı ziyarət olunub

Mayın 13-də dahi bəstəkar, Azərbaycanın və keçmiş SSRİ-nin Xalq artisti Qara Qarayevin (1918–1982) vəfatının 42-ci ildönümü tamam oldu.



Anım günü ilə əlaqədar Azərbaycan Bəstəkarlar İttifaqının sədri Xalq artisti, professor Firəngiz Əlizadə, ittifaqın katibləri – Əməkdar incəsənət xadimləri, professorlar Zemfira Qafarova, Cəlal Abbasov və başqa mədəniyyət xadimləri Fəxri xiyabanda Qara Qarayevin məzarını ziyarət ediblər.

Qara Qarayevin tələbəsi və onun məktəbinin layiqli davamçısı Firəngiz Əlizadə və bəstəkarın qızı Züleyxa Qarayeva-Bağırova xatirələrini və ürək sözlərini söyləyərək unudulmaz sənətkarın Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı mühüm xidmətlərini vurğulayıblar. Qara Qarayevin Azərbaycan Bəstəkarlar İttifaqının tarixində töhfələri də xüsusi qeyd olunub.

Qeyd edək ki, bu il Azərbaycan Bəstəkarlar İttifaqının yaranmasının 90 illik yubileyidir. Bu dövrün üçdəbirində təşkilata Qara Qarayev rəhbərlik (1953-cü ildən ömrünün sonunadək) edib.

XX əsrin dahi bəstəkarları – Üzeyir Hacıbəyli və Dmitri Şostakoviçin varisi olan Qara Qarayevin yetirmələri həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda da bəstəkarın yolunu layiqincə davam etdirirlər.

Fəxri xiyabanda anım ziyarətinə qatılanlar musiqi sənətimizin böyük simaları, Bəstəkarlar İttifaqının tarixində xüsusi yerləri olan Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Tofiq Quliyev və Vasif Adıgözəlovun məzarları üzərinə də gül dəstələri qoyublar.

# Bakı Müasir Musiqi Günləri

## İkinci dəfə keçiriləcək

Mayın 20-dən 26-dək Elm və Təhsil Nazirliyi və Mədəniyyət Nazirliyinin dəstəyi ilə "II Bakı Müasir Musiqi Günləri" festivalı keçiriləcək.

Festivalda Azərbaycan musiqiçiləri ("Cadenza", "BCMS" ansamblları) ilə yanaşı, Avstriya, Almaniya, Macarıstan, Norveç, ABŞ və Rusiyadan dəvət olunmuş ifaçıların iştirakı da nəzərdə tutulub.

Festivalın proqramı səhər, gündüz və axşam sessiyalarından ibarətdir – konsertlərin hamısı ictimaiyyət üçün açıqdır. Bundan əlavə, proqrama Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Beynəlxalq Muğam Mərkəzində ustad dərsləri, mühazirələr də daxildir.

Eyni zamanda Beynəlxalq Muğam Mərkəzində və Muzey Mərkəzində "Portretlər" adlı yaradıcılıq gecələri keçiriləcək. Festivalın axşam konsertləri Beynəlxalq Muğam Mərkəzində və M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında olacaq.

# BMM-də klassik musiqi axşamı

Beynəlxalq Muğam Mərkəzində "Klassik musiqi axşamı" adlı konsert keçirilib.



Mayın 9-da reallaşan konsertdə İzmir Opera və Balet Teatrı Simfonik Orkestrinin konsertmeysteri, violin ifaçısı Rövşən Müzəffərov və Azərbaycan Milli Konservatoriyasının baş müəllimi, pianoçu Arzu Səfərova çıxış ediblər.

Azərbaycan bəstəkarlarının əsərlərinə müraciət olunduğu konsert proqramı alqışlarla qarşılanıb.

Qeyd edək ki, Rövşən Müzəffərov 1968-ci ildə Bakıda tanınmış tarzən Elxan Müzəffərovun ailəsində dünyaya gəlib. 4 yaşından skripka alətinə maraq göstərib. 7 illik musiqi təhsilini başa vurduqdan sonra Asəf Zeynallı adına Musiqi Texnikumuna (T.Manafzadənin sinfi) daxil olur. 1982–1987-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA), 1992–1994-cü illərdə Xalq artisti, professor, məşhur skripkaçı Sərvər Qəniyevin sinfində təhsil alır. Rövşən Müzəffərov 1993-cü ildən İzmir Opera və Balet Teatrında konsertmeyster kimi fəaliyyət göstərir. Bu müddət ərzində həm solist, həm də orkestr artisti kimi neçə-neçə qastrol səfərlərində olub. Fransa, İngiltərə, Almaniya, Yaponiya, Hollandiya, Şimali Kipr Türk Cümhuriyyəti və s. ölkələrdə keçirilən festivallarda iştirak edib.

# "11 simin sədası"

## Musiqi məktəbinin tar sinfi şagirdlərinin konserti

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən 36 nömrəli Uşaq musiqi məktəbinin müəllimi, tarzən Rüfət Həsənovun şagirdləri mayın 8-də Beynəlxalq Muğam Mərkəzində (BMM) "11 simin sədası" adlı konsert proqramı ilə çıxış edib.



Musiqi axşamında əvvəlcə Rüfət Həsənovun pedaqoq və tarzən kimi fəaliyyətindən söz açılıb. Bildirilib ki, o, müxtəlif festivallara qatılıb, milli tar ifaçılığı sənətini layiqincə təmsil edib.

Pedaqoji fəaliyyətinin 20 illiyi ilə əlaqədar Rüfət Həsənova "Dədə Qorqud" Milli Fondunun mükafatı və BMM-in təbrik məktubu təqdim edilib. "Dədə Qorqud" fondunun sədri Eldar İsmayılov və BMM direktoru Əməkdar artist Sahib Paşazadə tarzənə yeni uğurlar arzulayıblar.

Rüfət Həsənovun müəllimləri – Xalq artistləri Ağaverdi Paşayev, Ağasəlim Abdullayev, Vamiq Məmmədəliyev, Ramiz Quliyev də ona təbriklərini çatdırıb, yaradıcılığı haqqında fikirlərini bölüşüblər.

Sonra səhnə 36 nömrəli Uşaq musiqi məktəbi şagirdlərinin ixtiyarına verilib. Tarzənin yetirmələri rəngarəng musiqi nömrələri ilə ustad sənətkarların qarşısında öz məharətlərini göstəriblər.

Sonda Rüfət Həsənov çıxış edərək konsertin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

# Filarmoniyada konsertlər



M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin konserti keçirilib.

Mayın 8-də gerçəkləşən konsertdə bədii rəhbər və baş dirijor – Xalq artisti Fəxrəddin Kərimovun rəhbərliyində Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin müşayiəti ilə solistlər Nicat Məmmədov (fleyta) və Fidan Əlizadə (piano) çıxış ediblər.

Proqramda F.Şubertin "Uvertüra" (c-moll D.8), V.A.Motsartın "Fleyta və orkestr üçün 1 nömrəli konsert" (G-dur K.313), C.Allahverdiyevin "Tac Mahal" baletindən "Vida adajiosu" və B.Brittenin "Frank Bridge mövzusuna variasiyalar"ı səsləndirilib.

***

Azərbaycan Dövlət Akademik Filarmoniyasında Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş konsert keçirilib.

Mayın 10-da təşkil olunan konsertdə dirijor Əməkdar incəsənət xadimi Elşad Bağırovun rəhbərliyi ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri çıxış edib.

Proqramda Ü.Hacıbəylinin "Koroğlu" operasından "Uvertüra", Q.Qarayevin "3 nömrəli simfoniya" və "İldırımlı yollarla" baletindən 2 nömrəli süitası ifa olunub.



Təqdim edilən musiqi nömrələri Azərbaycan mədəniyyətinin himayədarı olmuş Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə ehtiramın ifadəsi kimi səslənib.

# "Xarıbülbül" festivalında "Qarabağnamə" sərgisi

## Rəssamlar doğma yurdu tərənnüm edirlər





"Xarıbülbül" VII Beynəlxalq Musiqi Festivalı çərçivəsində mayın 12-də Şuşada "Qarabağnamə" adlı sərgi də təşkil edilib.

Şuşa Yaradıcılıq Mərkəzində açılan sərgidə 23 rəssamın Qarabağın tarixi, zəngin mədəniyyəti, məişəti, xüsusilə də Şuşanın tarixi və memarlığını əks etdirən əsərləri nümayiş olunub.

Qarabağın tarixinə, füsunkar təbiətinə boyalara həyat verən təsviri sənət ustalarımızın "Laləzar körpüsü", "Saatlı məscidi", "Azad Şuşa", "Şuşa incisi", "Ana Vətən" və digər əsərləri böyük maraq doğurub. Rəssamlar Azərbaycanın dilbər guşəsi Qarabağa xüsusi həssaslıqla yanaşıblar. Qarabağın tarixi şəxsiyyətləri, başı qarlı dağları, çayları, dərələri əsərlərdə çox təbii alınıb.

Sərgilənən əsərlərdə Qarabağın musiqi sənəti, süfrə mədəniyyəti, bayram coşqusu, milli mətbəxi kimi mövzular böyük həvəslə canlandırılıb.



Əsərləri nümayiş etdirilən müəlliflər öz sevinclərini bölüşərək yaradıcılıqlarında bundan sonra da doğma, əziz Qarabağımıza və onun baş tacı olan Şuşaya xüsusi yer ayıracaqlarını bildiriblər.

№36-37 (2102)
15 may 2024
www.medeniyyet.az

Soltan Hacıbəyov – 105

# Məşhur nəslin parlaq nümayəndəsi



**Mədəniyyət tariximizdə dərin iz qoyan bəstəkarlardan biri də Azərbaycanın və SSRİ-nin Xalq artisti, Dövlət mükafatı laureatı Soltan Hacıbəyov olub. Görkəmli bəstəkar geniş yaradıcılıq fəaliyyəti dövründə Üzeyir Hacıbəyli ənənələrinə söykənərək, həmçinin S.Prokofyev və D.Şostakoviçin nailiyyətlərindən bəhrələnərək, musiqinin müxtəlif janrlarında dəyərli əsərlər yaradıb. Bəstəkarın anadan olmasından 105 il ötür.**

Soltan İsmayıl oğlu Hacıbəyov 8 may 1919-cu ildə Şuşa şəhərində dünyaya göz açıb. Üzeyir Hacıbəylinin əmisi nəvəsidir. Erkən çağlardan musiqiyə maraq göstərib. İkisinifli ibtidai məktəbi bitirdikdən sonra, 1930-cu ildə Üzeyir bəy onu Bakıya gətirir. O, burada orta təhsili başa vurur, sonra sənədlərini orta ixtisas musiqi məktəbinə verir. Truba sinfində oxuyur. Eyni zamanda Musiqili Komediya Teatrında dirijor kimi çalışır. Gənc Soltanın yaradıcılıq fəaliyyəti də məhz bu dövrdən başlayır. İlk əsərlərini – "Pioner kantata"sı və "Qızılgül" musiqili komediyasını bəstələyir.

Soltan Hacıbəyovun məqsədi bəstəkarlıq üzrə ali təhsil almaq, professional olmaq idi. O, 1939-cu ildə Azərbaycan Dövlət Konservatoriyasının Bəstəkarlıq şöbəsinə (professor Boris Zeydmanın sinfi) qəbul olunur. Tələbə ikən müxtəlif janrlı musiqi əsərləri bəstələyir. İki prelüd və fortepiano üçün sonata, "Çiçəklərin söhbəti", "Neft haqqında nəğmə" mahnıları, "Quşcuğaz", "Tənha yelkən ağarır" romansları, simli kvartet, simfonik variasiyalar məhz tələbəlik dövrünün əsərləri idi.

Bir çox müasirləri olan sənətkarlar kimi o da II Dünya müharibəsi mövzusunda əsərlər yazır. Onun "Döyüşçülər nəğməsi" və 416-cı Taqanroq diviziyasına həsr etdiyi xalq çalğı alətləri orkestri üçün marşı, eyni zamanda I simfoniyası bu dövrdə yazılan əsərlər arasında fərqlənir və diqqəti çəkir. Bu simfoniya 1944-cü ildə Tiflisdə Zaqafqaziya respublikalarının musiqi ongünlüyündə ifa olunur və sənətsevərlər tərəfindən maraqla qarşılanır. Ongünlükdə iştirak edən görkəmli sovet bəstəkarı Reynhold Qliyer Soltan Hacıbəyovun bu əsərini yüksək qiymətləndirərək yazır: "Onun bacarığına şübhə ola bilməz. O, böyük zövqə malik, musiqinin texniki xüsusiyyətlərinə sahib bir bəstəkar olacaqdır".

Gənc bəstəkar tədricən ittifaq miqyasında tanınır. 1945-ci ildə Türkmənistan Opera və Balet Teatrı Soltan Hacıbəyova "Kəminə və Qazı" adlı opera yazmağı sifariş edir. "Şur" muğamı üzərində qurulan əsərin simfonik parçası "Karvan" adlanır. Karvan yollarını musiqi dili ilə canlandıran bəstəkar təsviri lövhələrə geniş yer ayırır. Fərqli-fərqli lövhələrlə, rəngarəng səslərlə hüdudsuz səhrada karvanın həzin və ahəstə hərəkətini sənətkarlıqla yaradır... "Karvan" simfonik lövhəsini dinləyərkən bir anlıq qumlu Asiya çölləri göz önünə gəlir. Aramla irəliləyən dəvə karvanı gah sakit, gah da həyəcanlı anlar yaşadır... 1955-ci ildə bəstəkar əsəri yeni redaksiyada hazırlayır. Niyazinin dirijorluğu ilə böyük orkestr tərəfindən ifa olunur. Sonralar "Karvan" simfonik əsəri bir çox sovet dirijorunun repertuarında yer alır. Qısa müddət ərzində dünyaya səs salır, Amerikada lentə alınır, Macarıstan, Yaponiya, Bolqarıstan və digər ölkələrdə ifa olunur.

Bəstəkar yaradıcılıq dünyasında uşaqlara da geniş yer verib. O, 1953-cü ildə "Oynaq topum", "Laylay", "Bənövşə", "Bahar gəldi", "Yolka", "Pioner marşı" və s. əsərlərini yazıb. Müəllif "İsgəndər və Çoban" uşaq operasını isə Bakı Pioner evinin sifarişi ilə ərsəyə gətirib. Operanı Nizami Gəncəvinin məşhur "İskəndərnamə" poeması əsasında yazıb.

1950-ci ildə "Gülşən" baletini yazan bəstəkar əsərdə diqqəti insanların qarşılıqlı münasibətinə və əxlaqi keyfiyyətlərinə yönəldir. Əsər Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində oynanılan ikinci balet tamaşası olur.

Soltan Hacıbəyov daha sonra vokal musiqisi sahəsində də çalışır. "Sarı bülbül", "Leyla", "Qarabağ şikəstəsi" adlı xalq mahnı və muğamlarını xalq çalğı alətləri orkestri üçün işləyir. Azərbaycan və rus klassik bəstəkarlarının ənənələri üzərində də dayanır. Nəticə etibarilə, yeni ruhlu və milli koloritli əsərlər yaratmağa nail olur. Soltan Hacıbəyov 1964-cü ildə ən parlaq əsərindən daha birini – orkestr üçün konsertini yazır. Bu əsər milli simfonik musiqi mədəniyyətimizə gözəl bir töhfə kimi qiymətləndirilir.

Görkəmli sənətkar eyni zamanda bir sıra səhnə əsərinə də musiqilər bəstələyib. Bu sırada M.İbrahimovun "Məhəbbət", "Kəndçi qızı", S.Vurğunun "İnsan", S.S.Axundovun "Eşq və intiqam", S.Rəhmanın "Əliqulu evlənir" və s. adlı tamaşalara yazdığı musiqilər maraqla qarşılanıb.

Soltan Hacıbəyov yaradıcılıq ezamiyyətlərində olduğu ölkələrin bəstəkar və musiqiçiləri ilə dostluq əlaqələri qurub. O, səfərlərdən qayıtdıqdan sonra həmin ölkələrlə bağlı bir sıra əsərlər bəstələyib. "Bolqar süitası", "Çex rəqsi", "Salam, Ukrayna" və "Hind süitası" əsərləri bu qəbildəndir.

Soltan Hacıbəyov 1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına müəllim kimi dəvət olunub. Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri, sonra isə direktoru vəzifəsinə irəli çəkilir. 1969-cu ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının rektoru vəzifəsinə təyin edilən bəstəkar ömrünün sonunadək bu vəzifədə çalışıb.

Azərbaycan musiqi mədəniyyətinin inkişafına verdiyi töhfələr yüksək qiymətləndirilən bəstəkar 1958-ci ildə "Əməkdar incəsənət xadimi", 1960-cı ildə Azərbaycanın, 1973-cü ildə isə SSRİ-nin "Xalq artisti" fəxri adlarına layiq görülüb.

Diqqətəlayiq əsərləri ilə musiqi mədəniyyətimizi zənginləşdirən bəstəkar 19 sentyabr 1974-cü ildə vəfat edib, Fəxri xiyabanda dəfn olunub.

**Savalan Fərəcov**

# İki "Şekspir"ə bir yazı...



**Ötən ay bir həftənin içində iki dəfə, ayrı-ayrı teatrların təqdim etdiyi "Şekspir"in girdabına düşdük. Görəsən, az qala hamının bir-birini tanıdığı teatr mühitində bir həftədə eyni müəllifin eyni əsərinin premyerası hansı ideyaya xidmət edir? Bu müqayisə və çəkiyə hesablanıbsa, çox əla. Necə deyərlər, bu meydan, bu da...**

Bəllidir ki, Xalq yazıçısı Elçinin dram əsərləri rejissor və aktyor üçün özünüifadəyə meydan verən nümunələrdir. Teatrı, səhnə və onun imkanlarını ustalıqla mənimsəyən, bir növ teatrda yetişən dramaturq kimi onun pyesləri hər məqamda çağdaş və texniki həll baxımından rahat olduğundan istənilən zaman teatr üçün lazımlıdır. Əsas odur ki, onun ana ideyasını duyub hər nümunəyə öz rejissor açarını tətbiq edə bilən, əsərin mövzusu ilə "dialoqa" girişən rejissor olsun.

Elçin dramaturgiyasının ən sevdiyim özəlliyi həm də onun rejissordan dərin həssaslıq və intellekt tələb etməsidir. Müəllifin əsərlərində təxəyyül ön planda olduğundan istər-istəməz fantaziyanı işə salmalı, o qəhrəmanlara qoşulub vəziyyət və onun diktəsində bir həllə çalışmalısan. Məhz "Şekspir"i göz önünə gətirsək, buna heç də hər rejissor nail olmur...

Bakı Bələdiyyə Teatrının "Şekspir"inə Xalq artisti Mərahim Fərzəlibəyov quruluş verib. Tamaşanın quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Əsgərov, musiqi hissə müdiri Əməkdar mədəniyyət işçisi Nazim Əbidov, işıqçı rəssamı Tərlan Ələsgərlidir.

Rolları İlqar Musayev (Baş həkim), Ülviyyə Rza (Həkim), Hüsniyyə Mürvətova (Sara Bernar), Rəşad Kəsəmənli (İosif Stalin), Zülfiyyə Qurbanova (Ər-arvad), Tural Əhməd (Drob 13), Toğrul Rza (Veneralı), Elçin Muradov (Sanitar), Rəşid Soltanov (I Sanitar) və Namiq Cavadov (II Sanitar) canlandırırlar.

Rejissor əsərə fərqli prizmadan yanaşmağa çalışıb. Belə ki, onun "Şekspir"i insanla dünya arasındakı oyun üzərində qurulub. Tərtibatda da bu fərqlənmə çağırışları ilk andan hakimiyyətini elan edir: ruhi-əsəb klinikasında (yəni səhnədə) daim yellənməkdə olan saat kəfkiri var və o dünyanın modelidir.

Biz səhnədə, tamaşanın vizual səhnə tərtibatında on oyun zərini görürük. Bu zərlərin hansı anlam daşıdığını qısa izah edək: əsərdə ümumilikdə 10 personaj var. Onun yarısı ağıllı (tibbi heyət), yarısı da dəlidir (xəstələr). Deməli, onlar həm özləri, həm dünya, həm də bizimlə oynayırlar. Beləcə, bizi də özlərinə qoşub dünya üzərindən "zər tuturlar". Sadə, düşündürücü və birbaşa mənaya hesablanmış üslubdur. Üstəlik, bu tamaşa yalnız belə minimalist tərtibat istəyir.

Tamaşa boyu xoşbəxtliyə can atan tənha insanların cəhdlərini görürük. Gah gülürük, gah da... Amma ən çox onlara haqq qazandırırıq. Ya da bu yolla təsəlli edirik.

Xəstələrinə həsəd aparan, hətta onlara inanan, xoşbəxtliyi başqa planetdə axtaran Baş həkim İlqar Musayevin təqdimatında baxımlı alınmışdı. Qəhrəmanının inandıqlarına təsirli bir təqdimat vermişdi.

Ülviyyə Rzanın bədbin və monoton həyat yaşayan bezgin qəhrəmanı Həkim həqiqətinə sonacan özü də yad qaldığından biz onun məsələsinə dərindən nüfuz edə bilmədik. Üstəlik, rejissorun zərif və istedadlı aktrisaya bariton tembrlə danışmaq təlimatına heç cür anlam verə bilmədim. Sonadək səsi üzərində işləyən aktrisa bütün planlarda oyununu unutdu.

Sosiska oğrusu Sanitar Elçin Muradovun təqdimatında komik-dramatik çalarlarda zövqlü alınmışdı. Aktyor dəlilərin ruzisinə göz dikən qəhrəmanının sondakı Şekspir heyranlığını bütün xırdalığı ilə ifadə edə bildi.

Birmənalı olaraq, tamaşanın mükəmməl oyunçusu yar tapa bilmədiyindən özünü Ər-arvad elan edən xoşbəxt dəli Zülfiyyə Qurbanova idi. Obrazının daxili dünyasına ustalıqla varması, onun emosional çağırışlarını, kişi və qadın olaraq bədən dilində ifadəsi, səsi və hərəkətləri arasında ən incə detalları belə duyması alqışa layiqdir. Hərçənd, niyə Ər-arvad obrazında ondan məhz daha çox kişilik tələb olunduğu sual olaraq qalsa da. Zülfiyyə xanımın qadın kimi cazibəsi, aktrisa olaraq inandırmaq qabiliyyəti bizi bir canda iki əks qütbə köklədi.

Əməkdar artist Hüsniyyə Mürvətovanın Sara Bernarı zərif, məsum, təsirli, baxımlı idi. O həm qadın kimi hiyləgərliyini işə saldığı məqamlarda, həm də bir ruhi xəstə kimi yardıma ehtiyacı olmadığını təlqin edəndə orijinal oyun sərgilədi.

Eyni sözləri Rəşad Kəsəmənlinin İosif Stalini üçün deyə bilmirəm. Niyə? Çünki aktyor kimi "əriməyi", belə deyək, dondan-dona girməyi bacarmır. Bir növ, replikaları uğrunda "döyüşən" sözəbaxan mizan artistliyində ilişib qalır. Əlindəki tənbəkisi və bığları olmasaydı, səhnədə Stalini "çıraq"la gəzərdik.

Üz ifadələrini, səsini yaxşı ram edən Tural Əhmədin Drob 13-ü yaxşı işlənmiş, oyun manerası baxımından uğurlu idi. Bundan əvvəlki bir neçə oyununda qiraətçi təsiri bağışlayan T.Əhməd başqa planetdən gəldiyini iddia edən dəli səadətini mükəmməl çatdırdı.

Mənə görə, bu əsərin də, elə bu tamaşanın da ən günahsız sakini Veneralıdır. Cizgilərinə, tamaşaçı ilə vizual ünsiyyətinə çox vaxt özü xüsusi əmək sərf etmədən nail olan, belə demək mümkünsə, tamaşaçının o səhnədə olduğu zaman mütəmadi "müraciət" etdiyi Toğrul Rza özüylə prototip arasında gözlə görünəcək qədər zərif bir dairə cızmışdı.



M.Fərzəlibəyovun "Şekspir"i müəllifin fəlsəfəsinin vizual həlli, estetik parametrləri doğru-düzgün müəyyənləşdirməsi, mahiyyətin rasional ifadəsini yerində və özü də təyin olunan gediş zamanı verməsinə görə yaxşı kollektiv işi hesab edilməlidir.

***

İndi isə keçək Şuşa Dövlət Musiqili Dram Teatrının baş rejissoru Əməkdar artist Loğman Kərimovun uzun müddətdir üzərində çalışıb, üzə çıxardığı "Şekspir"ə.

Məsələyə "Kim dəli, kim ağıllı" kontekstindən yanaşan heyətin bu tamaşasının quruluşçu rəssamı Valeh Məmmədov, musiqi tərtibatçısı Asyaxanım Heydərovadır.

Rolları Əməkdar artist Nazir Rüstəmov (İosif Stalin), aktyorlar Emin Sevdiməliyev (Baş həkim), Sevinc Ağayeva (Həkim), Vüsal Məmmədov (Sanitar), Orxan Abışov (Drob 13), Püstəxanım Zeynalova (Sara Bernar), Mobil Qurbanov (Veneralı) və Zəhra Salayeva (Ər-arvad) ifa edirdilər.

Sözsüz ki, buradakı qəhrəmanlar da eyni məkanın (ruhi-əsəb klinikası) sakinləridir. Tərtibat da onu birbaşa deyir: ön planda xəstələrin yemək masası və baş həkimin kabineti, arxa planda da çarpayılar. Xəstələr də elə xəstə halında: ağ-çəhrayı, ağ-göy zolaqlı geyimlərində.

Bələdiyyəçilərin "Şekspir"indən fərqli olaraq, L.Kərimov rejissor yozumunda dəlisinə ağıllı, ağıllısına da dəli kimi baxış istəyir. Yaxşı fənddir: "Tamaşaçı, niyə boş-boş oturmusan, beynini işlət və kimin dəli, kimin də ağıllı olduğunu, bir zəhmət, özün müəyyən elə". İndi bunu oxuyanda yəqin sizə də qəribə gələcək. Amma inanın, təxminən belə deyirdi o an səhnədə olub-bitən hər şey.

Doğrudur, çağdaş dünya teatrında səhnədən maneəsiz təmas – yəni interaktiv rabitədə oyun bir trenddir. Bir növ, rejissor aktyor vasitəsilə istədiyi məqamda tamaşaçını oyunun içinə salaraq onda yarana biləcək hər hansı ağlabatan və ya əksinə, ağılsız suala (öz oyun cəhdinə kənardan tamaşa imkanı olmadan) cavab tapır. Qısacası, deyir ki, gəl görüm, indi və buradakı vəziyyətə təklif edilən cavabın nə olacaq.

Loğman müəllimin səkkizliyinin lokomotivi sözsüz ki, N.Rüstəmov və O.Abışov idi. Buradakı Baş həkim xəstələrin xəyali dünyasını dərk etməyə çalışsa da, sonra anlayır ki, xəstə kimi müalicə olunan insanlar öz xəyal aləmlərində xoşbəxtdirlər. Bircə özündən başqa. Niyə özü? Çünki aktyor nə illah etdisə də, əslində, obrazının ana ideyasına nüfuz edə bilmədi... Maraqlıdır, bir aktyor səhnədə tamaşaçı ilə yaxın məsafədə ünsiyyətini niyə bu qədər qalın divarlar arxasından qursun ki?! Hərçənd boy-buxunu, fakturası, səs tembri onun ən kəskin silahıdır.

Bəzi məqamları, məsələn, Drob 13 ilə Şekspir əsərlərinə, xüsusən Cülyettaya vardığı anları çıxmaq şərtilə P.Zeynalovanın Sara Bernarı bəsit bir kabare müğənnisindən o yana getmədi. İtələyici səs, daim bir planda hərəkət və yalnız dramatik ovqatı əyləncəli, çılğın, səmimi, cazibədar və mehriban qadını silib-süpürüb səhnənin uzaq küncünə atdı və aktrisa heç cür "Sən dəlisən, mən dəli?" dilemmasından çıxa bilmədi.

Məhdud mizanda belə aktyor çevikliyini işlədə bilməyən M.Qurbanov gül kimi obrazına – məsum Veneralısına nəinki yad planetdə, heç kiçik səhnədə belə yurd salmadı.

Ümumiyyətlə, istər Veneralı, istər Sara Bernar, istərsə də Ər-arvadın geyim-kecimini, saç-başını, qısacası, xarici görünüşünü o kökə salmaq nəyə xidmət edirdi? Onsuz da hamımız gözəl bilirik ki, bunlar dəlidirlər. Daha, el dilində də deyildiyi kimi, dəlinin buynuzu olmur ki... Üstəlik, o forma aktyora oyun zamanı mane olursa, daha doğrusu, quruluş tələblərinə cavab vermirsə, lap pis...

Zəhra Salayevanın cəsarətli və dinamik oyun üslubu var. Tamaşaçı ilə tez ünsiyyətə girə bilir. Amma quruluşçu onun oyun yükünü, daha doğrusu, əsərdəki yerini düzgün müəyyən etməkdən çox, ondan şəxsiyyətin ikiləşməsinə fokuslanmağı tələb etdiyindən aktrisa necə oynamaqdan çox, nəyi nə zaman etməyin qarğaşasında qaldı.

Bələdiyyəçilərin oxşatmağa çalışdığı İ.Stalindən fərqli olaraq, N.Rüstəmovun Stalini yaxasında xaçla gəzən miskin bir rahibi andırdı. Axı o, bəşəriyyətdən əfv, günahlarından xilas gözləyir. Rejissorun dəfələrlə diz çökdürüb mərhəmət dilətdirdiyi qan çanağı Stalin N.Rüstəmovun klassik aktyor məktəbinə xas doğru və yerində tənzimlənmiş oyun çərçivəsində asan qavranılırdı.

Buna rəğmən, N.Rüstəmov əsərin bizə təqdim etdiyi Stalini arındırmaqla, daha doğrusu, özündə realizə edərək göstərdi. Bir növ, özü ilə obrazı arasında qurmuş olduğu vicdan məhkəməsində əvvəlcə Stalini edam etdi, sonra da ona bəraət "verdi".

Tamaşanın ən mükəmməl, ən baxımlı və ən amansız dəlisi Drob 13 – Orxan Abışov idi. Məncə, Orxan Şuşa teatrının tapıntısıdır. Bir aktyor çəlimsiz canına bu qədər enerjini necə yığıb, görəsən? Və ən əsası, teatrın repertuarındakı digər tamaşalarda aparıcı kişi rollarında bu aktyoru niyə görmürük?! Onun qəhrəmanı, aktyorun sıxma-boğmaya sala-sala bu qədər mükəmməl ifadə etdiyi yad planetdən gələn bəxtəvər sakini yaxşı dəli olmuşdu...

Əslində, inanıram, inanmaq istəyirəm ki, Loğman Kərimovun şıltaq və bir o qədər də məna yükü ilə təqdim etdiyi "Şekspir" özünə böyük tamaşaçı auditoriyası toplayacaq. Çünki rejissor müəllifin dərin fəlsəfəsini bu günün "Yumurta biş, ağzıma düş" arzulu tənbəl tamaşaçıları üçün seçilmiş menyu kimi qızılı sinidə təqdim edir...

**Həmidə Nizamiqızı**

Pressfakt

# İllər öncə qəzetlər nədən yazırdı?

## Milli Kitabxananın dövri mətbuat arxivindən (15)

**Mətbuat xronikasında bu dəfə "Mədəniyyət" qəzetinə – otuz il əvvələ nəzər salacağıq. 1994-cü ilin mayı... Birinci Qarabağ müharibəsində atəş yenicə kəsilib, amma cəbhədə vəziyyət gərgindir. Bu günlərdə mədəniyyət xadimləri də cəbhə bölgələrinə gedərək hərbçilərimizə mənəvi dəstək olurlar... Şuşanın işğalından iki il ötür. Musiqimizin beşiyi ilə yanaşı, musiqi alətləri fabriki də düşmən əlindədir... Və dahi şair Məhəmməd Füzulinin 500 illik yubileyidir...**

Seçmələrdə qəzetdəki orfoqrafiya saxlanılıb.

***

### *Aktyorlar cəbhə bölgələrində*

Azərbaycan xalq artisti, respublika Dövlət və "Qızıl dərviş" mükafatları laureatı Yaşar Nurinin rəhbərliyi ilə Milli Dram Teatrının bir qrup aktyoru cəbhə bölgələrində olmuşdur. Onlar yeddi gün ərzində döyüşçülərlə görüşmüş, Vətən müdafiəçilərinin qarşısında rəngarəng proqramla çıxış etmişlər.

Açıq səma altında və əsgər kazarmalarında verilən tamaşalarda xalq artistləri Yaşar Nurinin, Zemfira Əliyevanın, əməkdar artistlər Hacı İsmayılovun, Elxan Ağahüseynoğlunun və başqalarının çıxışları hərarətli alqışlarla qarşılanmışdır. Söhbət zamanı döyüşçülər arzu etmişlər ki, incəsənət ustaları, o cümlədən teatr xadimləri tez-tez cəbhə bölgələrinə gəlsinlər. Onlar bildirmişlər ki, aktyorların, musiqiçilərin hər bir çıxışı əsgərlərimizin döyüş ruhunu yüksəldir, qələbəyə inamını artırır.

### *"Tar" müəssisəsi kara gəlir*

Şuşa işğal olunandan sonra musiqi alətlərinə böyük ehtiyac duyulur. Musiqi alətləri fabriki düşmən əlinə keçən gündən iki ildən çox vaxt keçir. Bu ehtiyacı ödəmək məqsədilə Lerik musiqi məktəbinin müəllimi Sərhəng Qafarov "Tar" kiçik müəssisəsi yaratmışdır. Müəssisə yaxın vaxtlarda ilk məhsulunu buraxmışdır. İndi Lənkəran, Cəlilabad və Biləsuvar rayonlarından buraya tar almağa gəlirlər. Hamı Saday Mədətovun, Seyfəddin və Mirhəsən Qafarovların düzəltdikləri tarları bəyənir və onları böyük həvəslə alırlar. Bundan əlavə müəssisə təmirlə də məşğul olur. İndi bölgə musiqiçiləri alətlərini düzəltdirmək üçün daha Bakıya, Sumqayıta ayaq döymürlər. "Tar" müəssisəsi başqa musiqi alətləri istehsal etməyi də qərarlaşdırıb. Bunun üçün binaya ciddi ehtiyac var. Ümid edirik ki, Sərhəng müəllimin başladığı tarixi təşəbbüsdən Lerik İcra hakimiyyəti kömək əlini əsirgəməyəcək.

### *Dərbənd böyük Füzulini anır*

Dərbəndin Cəliçoban kənd orta məktəbində Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr edilmiş ədəbi gecə keçirilmişdir. Azərbaycan dili




və ədəbiyyatı müəllimi Sadir Mamayevin dərs dediyi şagirdlərin hazırladığı ədəbi-bədii gecədə dahi şairin həyat və yaradıcılığına həsr edilmiş məruzə dinlənilmiş, ölməz sənətkarın şer və qəzəlləri səslənmişdir.

*"Mədəniyyət" qəzeti, 14 may 1994-cü il*

# Ulu öndər musiqi sənətimizin də böyük himayədarı idi

Mayın 8-də Azərbaycan Bəstəkarlar İttifaqının (ABİ) konfrans zalında Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar tədbir keçirilib.



İttifaqın sədri Xalq artisti, professor Firəngiz Əlizadə tədbiri açaraq Azərbaycan musiqi mədəniyyətinin inkişafında Heydər Əliyevin böyük tarixi xidmətlərinin olduğunu bildirib. Qeyd olunub ki, Heydər Əliyevin ölkəmizdə birinci rəhbərliyi dövründə bəstəkarlarımıza xüsusi diqqət və qayğı göstərilib. Ulu öndərin Azərbaycan milli musiqi mədəniyyətinin korifeyləri – Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Müslüm Maqomayevlə şəxsi dostluğu yeni-yeni dəyərli əsərlərin yaranmasına vəsilə olub.

ABİ-nin sədri Ümummilli liderin elm və incəsənət xadimləri ilə ünsiyyətini əks etdirən "Heydər Əliyev. Təltiflər" adlı kitabın Ankarada işıq üzü gördüyünü diqqətə çatdırıb. Ötən il dahi siyasətçinin 100 illik yubileyi münasibətilə Bəstəkarlar İttifaqı tərəfindən "Heydər Əliyev və musiqi mədəniyyəti" adlı kitabın da çap olunduğu vurğulanıb.

Xalq artisti Tofiq Bakıxanov Ulu öndərlə bağlı xatirələrini bölüşüb. Qocaman bəstəkarın çıxışı Prezident Heydər Əliyevin 2001-ci ildə ona "Şöhrət" ordenini təqdim etməsi ilə bağlı videofraqmentlə müşayiət olunub.

Əməkdar incəsənət xadimi, professor Həcər Babayeva "Heydər Əliyev və Azərbaycan musiqi xadimləri", Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı "Heydər Əliyevə həsr olunan musiqi əsərləri", sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aytən Babayeva "Heydər Əliyev və musiqi mədəniyyəti" kitabı haqqında" məruzələrlə çıxış ediblər.

Bədii hissədə Heydər Əliyev dühasına həsr olunan musiqilər səslənib. Proqramda Tofiq Bakıxanovun "Həmişə bizimləsən" simfonik poeması, gənc bəstəkar İlahə Qismətin "Sən dahisən" və digər bəstəkarların əsərləri ifa olunub.

# Rəssamlar İttifaqının sərgi salonunda...





Azərbaycan Rəssamlar İttifaqının (ARİ) V.Səmədova adına sərgi salonunda rəssam-dizayner Esmiralda Tağızadənin fərdi yaradıcılıq sərgisi açılıb. Sərgi rəssamın 70 illik yubileyinə həsr olunub.

ARİ-nin katibi Xalq rəssamı Ağaəli İbrahimov çıxışında rəssamı "yaradıcılıq" sözünün mahiyyətini tam açaraq təqdim edən sənətkar kimi dəyərləndirib. Bildirib ki, Esmiralda Tağızadə Mədəniyyət və İncəsənət Universitetinin Dizayn fakültəsini bitirən ilk peşəkar rəssamlardandır. Onun ilk fərdi sərgisi 2000-ci ildə təşkil olunub. Hazırda Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında pedaqoji fəaliyyətlə də məşğul olur.

Xalq rəssamı Arif Hüseynov, "Yeni Gallery"nin direktoru Rafael Gülməmmədli, "Bakı" rəsm qalereyasının rəhbəri Eldəniz Babayev çıxış edərək yubilyarı təbrik ediblər.

Esmiralda Tağızadə qonaqlara təşəkkür edərək sənətə gəlişindən, keçdiyi yaradıcılıq yolundan söz açıb.

Qeyd edək ki, mayın 6-dan 13-dək davam edən sərgidə rəssamın 70 əsəri yer alıb.

***

Vəcihə Səmədova adına sərgi salonda keçirilən daha bir sərgidə rəssam-pedaqoq Xanım Məmmədovanın əl işləri nümayiş olunub.

ARİ-nin katibi Ağaəli İbrahimov sərgi münasibətilə müəllifə təbriklərini çatdırıb. Bildirib ki, Xanım Məmmədova Ə.Əzimzadə adına Rəssamlıq Məktəbini və Azərbaycan Dövlət və Mədəniyyət Universitetini (ADMİU) rəngkarlıq ixtisası üzrə bitirib. ARİ-nin üzvü olan fırça ustası 2007-ci ildən ADMİU-da dərs deyir. Respublikada və ölkəmizdən xaricdə bir sıra sərgilərin iştirakçısı olub.

Xalq rəssamı Xanlar Əhmədov da həmkarını təbrik edib, onun əsərlərinin sənətsevərlər tərəfindən hər zaman maraqla qarşılandığını deyib.

Çıxışlardan sonra sərgi ilə tanışlıq olub. Sərgidə rəssamın müxtəlif texnikalarla işlənmiş 60-a yaxın əsəri təqdim edilib.

**Lalə**

# "Neytral zona"da qalanlar...

## İt xilas olsa da, baş qəhrəmanın it zülmü bitmir

Otuzdan artıq əsəri ölkənin müxtəlif teatrlarında səhnəyə qoyulan, yazıçı ömrünün əhəmiyyətli bir hissəsini dramaturgiyaya həsr edən Əməkdar incəsənət xadimi Firuz Mustafa bütün pyeslərində çağdaş insanın ağrısını dağdan arana, arandan dağa daşıyaraq haqq sözünü, həqiqətin yolunu ustalıqla göstərir. Onun qəhrəmanları mürəkkəb həyat burulğanında çox sadə məqamlarda dolaşığa düşən insanlar olsalar da, yazıçı ləyaqət prinsipinə əməl edərək onların hər birinə mütləq bir missiya yükləyir. Özü də bunu dramaturgiyanın məhdud imkanlarında elə usta ölçü ilə paylayır ki, sən bəzən ən əclaf tipaja da ya acıyır, ya da gülürsən. Nifrət isə ya olur, ya da heç həndəvərindən də keçmir.





Firuz Mustafanın "Neytral zona" pyesi bundan öncə Qazax Dövlət Dram Teatrında, ardınca da Dərbənd Azərbaycan Dram Teatrında (Dağıstan, RF) tamaşaya qoyulub. Əsər sadə hekayəni nəql etsə də, bəşəri anlamda insan və ona olan münasibətə, ya da münasibətsizliyə dramaturqun sərt təpkisidir.

Pyes "Tərəfsiz bölgə" adı ilə artıq Türkiyənin Trabzon Sənət Teatrının da repertuarındadır. Azərbaycana böyük sevgisi olan əsl teatr fədaisi və təəssübkeşi Necati Zenginin rəhbərlik etdiyi heyət müəllifin aktual və bəşəri kontekstdə çoxqatlı əsərinə özünəməxsus yozum verməyə çalışıb.

Premyerası ötən il gerçəkləşən tamaşa bu günlərdə (6–7 may) bizim teatrsevərlərə də təqdim edildi. Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) təşkilatçılığı ilə həyata keçirilən "Qonaq teatr" layihəsi çərçivəsində Trabzon Sənət Teatrı Bakıda çıxış etdi.

Əsəri yazıçı-tərcüməçi, ötən il qardaş ölkədə zəlzələ qurbanı olmuş Abdulkadir Özkan türkcəyə çevirmişdi. Tamaşanın quruluşçu rejissoru Cemre Can Avçı, dekor, kostyum və rəsmlərin müəllifi Murat Aslan və Lale İsgenderoğlu, işıq mühəndisi Aygün Güner Aslandır.

Rolları aktyorlar Lale İsgenderoğu, A.Songül Nadir, Kevset Nur Yılmaz, Süleyman Sarıkaya, Serkan Serbest, Haktan Özkan, Seyman Ali Pervanoğlu, Mete Aslan ifa edirlər.

Yuxarıda da qeyd etdiyim kimi, əsər sadə insan taleyinə laqeyd münasibətə usta eyhamdır. Tamaşada iki dövlət sərhədi arasındakı neytral zonada – tərəfsiz bölgədə öz sənədini, yəni pasportunu və pullarını itirən qəhrəmanın – Vasifin başına gələn qəribə hadisənin nəqlidir.

Tamaşa boyu həm komik, həm də faciəvi hadisələr bir-birini əvəz edir. Çarəsizliyin tragikomik təzahürü olan əsərdə bu boyda Yer üzünə sığmayan, heç yanda yeri olmayan, bir kağız parçasından dolayı inkar edilən insan taleyi təsvir edilir.

Onu nə getdiyi, nə də gəldiyi keçid məntəqəsindən içəri buraxmırlar. Hadisələrin gedişi zamanı məlum olur ki, tərəfsiz bölgədə qalan qəhrəmanın hər iki tərəfdə bir-birindən xəbərsiz ailəsi və uşaqları var. Çıxış yolunu hər iki tərəfdəki arvadlarını köməyə çağırmaqda görən çarəsiz Vasif problemin daha da böyüməsinə nail olur. Bu da sərhəd keçid məntəqəsində bütün günü mürgü vuran kiçik məmurlara əsl mövzu olur. Onlar inkar etdikləri vətəndaşları üzərindən əylənir və boz çöllükdəki monoton həyatlarına, cansıxıcı növbə müddətlərinə belə rəng qatmağa çalışırlar.

Sənədlərini hər iki arvadından xəbər alan Vasif onların köməyə gəlməsinə sevinə bilmir. Çünki ikili vətəndaşlığı və arvadları qarşısında cavab verməlidir. Gözlənilənin əksinə olaraq, arvadları asanlıqla dostlaşırlar. İndi onların bir məqsədi var: Vasifi xilas eləmək. Amma bu elə də asan məsələ deyil.

Bir nəticə hasil olmur. Bu zaman hər iki dövlətin insan haqlarını müdafiə edən əməkdaşları neytral zonaya təşrif buyururlar. Hərə bir məsləhət, beynəlxalq konvensiyalardan bir sitat gətirir. Amma çifayda. Vasif yenə də çıxış yolunu tapa bilmir. Və belə məlum olur ki, onun düşdüyü situasiyadan xilas olması heç də asan məsələ deyildir. Pasportsuz qalan şəxsin tərəfsiz bölgədən çıxması ən yüksək, yəni dövlət səviyyəsində həll olunmalıdır. Məsələyə hətta beynəlxalq qurumlar müdaxilə etməlidir.

Gərgin və zaman-zaman ona rəng qatan komik hadisələr fonunda biz bürokratik əngəllər, onun fonunda personajların iç dünyası, psixologiyasına nüfuz edə bilirik.

Bu arada tərəfsiz bölgədə məftillər arasında ilişib qalan bir itin də hekayəsini dinləyirik. Sərhədçi Vasifə təsəlli verirmiş kimi "Burada qalan tək sən deyilsən. O yazıq it də neçə gündür hürür. Amma sənədi olmadığından onu sərhəddən buraxa bilmirik" deyib irişir.

Sonra hadisələr kəskin şəkildə dəyişir. Hüquq müdafiəçilərinin məsləhəti ilə ərlərini müdafiə şüarları ilə hər iki ölkənin yüksək məmurlarının qarşısında etiraz edən qadınlar döyülüb-söyülür və kor-peşman geri dönürlər. Əvəzində itin bəxti açılır. Bəlli olur ki, sən demə, o, Avropa ölkələrindən birinin rəhbərinin xanımının iti imiş və axtarışdadır. İt hörmət-izzətlə sərhəddən götürülərək beynəlxalq təşkilatın təyyarəsi ilə sahibəsinin yanına göndərilir. Amma Vasifin it zülmü bitmir ki, bitmir...

Maraqla izlənilən tamaşa alqışlarla qarşılandı. Ardınca qonaq teatr mənsubları təltif olundular. Trabzon Sənət Teatrının bədii rəhbəri Necati Zenginə Türkiyə-Azərbaycan mədəni əlaqələrinin inkişafındakı xidmətlərinə görə ATXİ-nin mükafatı, "Tərəfsiz bölgə" tamaşasının orijinal həllinə görə teatrın yaradıcı heyətinin üzvlərinə isə ittifaqın fəxri fərmanları verildi.

**Həmidə**

# Film layihələri ilə bağlı apellyasiya müraciətlərinin nəticələri açıqlanıb

Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) 2023-cü il iyulun 18-də elan etdiyi film layihələri müsabiqəsinin qaydalarına əsasən yaradılan Apellyasiya komissiyasına müraciət olunan film layihələri ilə bağlı yekun nəticələr açıqlanıb.

Agentlikdən verilən məlumata görə, komissiya təqdim olunan layihələrlə bağlı məzmun cəhətdən fərqlənən ssenariləri məqbul qiymətləndirib. Bununla yanaşı, kommersiya potensialı olan layihələrin 50 faiz və ya daha çox hissəsinə ARKA tərəfdən investor kimi maliyyə dəstəyinin göstərilməsinə qərar verilib.

Aşağıdakı film layihələri Apellyasiya komissiyasının müsbət rəyini alıb:

"Rakurs Film-Media", "Mənə bənzər adam" – tammetrajlı bədii; "Karvan production", "Ağalı" – tammetrajlı bədii; "Rog Vfx Studio", "Oriondan sevgilərlə" – qısa bədii; "Vətən TV" media şirkəti, "Müharibənin gözləri" – qısa sənədli; "Oskar Film", "Danışır və göstərir Şuşa" – qısa sənədli; "Birlik kinostudiyası", "Nağıl istəyirəm!" – qısa animasiya.

Komissiyadan keçən film layihələrinin məxsus olduğu istehsalçı şirkətlərlə müqavilə bağlandıqdan sonra filmlərin istehsalına start veriləcək. Bundan başqa, film layihələri müsabiqəsində qalib gələn istehsalçı şirkətlərə maliyyə vəsaitinin ödənilməsinə başlanılıb.

## Xatirə təqvimi

11-16 may

### Azərbaycan

**11 may 1915** – Görkəmli heykəltaraş, Xalq rəssamı Fuad Həsən oğlu Əbdürrəhmanov (1915 – 15.6.1971) Şəkidə anadan olub. Nizami Gəncəvinin (Bakıda və Gəncədə), Səməd Vurğunun abidələrinin, "Azad qadın" heykəlinin müəllifidir.

**11 may 1928** – Əməkdar mədəniyyət işçisi, aktyor, kino təşkilatçısı Nəriman Qulam oğlu Axundov (1928-2009) anadan olub. 1958-ci ildən "Azərbaycanfilm" kinostudiyasında müxtəlif vəzifələrdə çalışıb.

**11 may 1935** – Xalq yazıçısı Maqsud Məmmədibrahim oğlu İbrahimbəyov (1935 – 22.3.2016) anadan olub. Bir sıra əsərləri ("Mezozoy əhvalatı", "Bayquş gələndə") ekranlaşdırılıb. "Bizim Cəbiş müəllim", "Uşaqlığın son gecəsi" və s. filmlərin ssenari müəllifidir. Milli Məclisin deputatı (1995-2010) olub.

**11 may 1946** – Əməkdar rəssam Nazim Şamil oğlu Rəhmanov (1946–2003) anadan olub. 1989-cu ildə Xəzəryanı ölkələrin Bakı biennalesində I mükafata layiq görülüb. Əsərləri Moskva Şərq Xalqları İncəsənəti Muzeyində, şəxsi kolleksiyalarda saxlanılır.

**11 may 2022** – Əməkdar incəsənət xadimi, rejissor, ssenarist, sənədli filmlər müəllifi Musa Ağabəy oğlu Bağırov (10.5.1932 – 2022) vəfat edib.

**12 may 1907** – Xalq artisti, bəstəkar və pedaqoq Səid Rüstəmov (1907 – 10.6.1983) İrəvanda anadan olub. "Beşmanatlıq gəlin", "Durna" və s. musiqili komediyalarının, populyar mahnıların ("Qurban adına", "Oxu, gözəl!" və s.) müəllifidir. Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri və baş dirijoru olub.

**12 may 1915** – Xalq rəssamı, heykəltaraş İbrahim Əli oğlu Quliyev (1915 – 16.6.1971) Şəkidə doğulub. Azərbaycanın ilk peşəkar heykəltaraşlarından biridir, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü olub.

**12 may 1940** – Əməkdar mədəniyyət işçisi, şair, tərcüməçi, ədəbiyyatşünas Abbas Abdulla (Hacaloğlu; 1940 – 4.9.2019) Gürcüstanın Bolnisi rayonunun Bolus Kəpənəkçi kəndində doğulub. Ukrayna ədəbiyyatından tərcümələr edib.

**12 may 1940** – Əməkdar incəsənət xadimi, heykəltaraş Vaqif Osman oğlu Nəzirov (1940–2020) anadan olub. Sumqayıt şəhərinin baş rəssamı işləyib, "Sülh göyərçini" abidəsinin həmmüəllifidir.

**12 may 1952** – Əməkdar artist Azər Əlbaba oğlu Mirzəyev (1952 – 19.7.2014) Zərdab rayonunun Əlvənd kəndində doğulub. Gənc Tamaşaçılar Teatrında aktyor kimi çalışıb, Milli Dram Teatrının direktor müavini olub.

**12 may 2005** – Xalq artisti, məşhur xanəndə Sara Bəbiş qızı Qədimova (31.5.1922 – 2005) vəfat edib. Azərbaycan Dövlət Filarmoniyasının, Opera və Balet Teatrının solisti olub.

**12 may 2011** – Görkəmli rejissor, aktyor, Əməkdar incəsənət xadimi Vaqif İbrahimoğlu (Həsənov; 18.10.1949 – 2011) vəfat edib. Yuğ Dövlət Teatrının yaradıcısı olub.

**13 may 1919** – Tanınmış tarzən, bəstəkar, Əməkdar artist Adil Gəray (Adil Heybətqulu oğlu Məmmədbəyli; 1919 – 13.12.1973) Bakıda doğulub. Tar üçün əsərlərin, məktəblər üçün nəğmələr məcmuəsi və s. müəllifidir.

**13 may 1929** – Əməkdar incəsənət xadimi, şair, tərcüməçi Hikmət Ziya (Hikmət Ziya oğlu Əfəndiyev; 1929 – 2.8.1995) Ağdamda anadan olub. Uşaq və gənclər üçün əsərlərin, çoxsaylı təmsillərin müəllifidir.

**13 may 1982** – Böyük bəstəkar, pedaqoq, akademik, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Qara Əbülfəz oğlu Qarayev (5.2.1918 – 1982) vəfat edib. "Yeddi gözəl", "İldırımlı yollarla" baletləri, "Don Kixot" simfonik qravürü, "Leyli və Məcnun" simfonik poeması, simfoniyalar və s. əsərlərin müəllifidir. Bəstəkarlar İttifaqına rəhbərlik edib.

**14 may 1906** – Əməkdar artist, opera müğənnisi Şirzad Abasəli ağa oğlu Berqman (Hüseynov; 1906 – 10.5.1971) Bakıda anadan olub.

**14 may 1937** – Əməkdar incəsənət xadimi, rəssam, qrafika ustası Elmas Mirmehdi oğlu Hüseynov (1937 – 6.12.2013) Bakıda anadan olub.

**14 may 1985** – Məşhur tarzən, Xalq artisti Bəhram Məşədi Süleyman oğlu Mənsurov (12.2.1911 – 1985) vəfat edib. 1932-ci ildən Dövlət Opera və Balet Teatrının solisti və konsertmeysteri olub.

**15 may 1893** – Görkəmli türkoloq, şair, professor Bəkir Vahab oğlu Çobanzadə (1893 – 13.10.1938) Krımda anadan olub. Azərbaycanda dilçilik elmi və türkologiyanın təşəkkülü və inkişafında böyük rol oynayıb. Repressiya qurbanıdır.

**15 may 1899** – Xalq artisti Rza Əfqanlı (Rza Rüstəm oğlu Cəfərzadə; 1899 – 9.11.1973) Cənubi Azərbaycanın Sərab şəhərində doğulub. Akademik Dram Teatrında çalışıb, filmlərdə ("Bakılılar", "Kəndlilər", "Dağlarda döyüş") maraqlı obrazlar yaradıb.

**15 may 1903** – Əməkdar artist, teatr aktyoru Mirhəsən Miriş oğlu Mirişli (1903–1973) anadan olub.

**15 may 1922** – SSRİ Xalq artisti, bəstəkar Rauf Soltan oğlu Hacıyev (1922 – 19.9.1995) anadan olub. "Romeo mənim qonşumdur", "Talelər qovuşanda" və s. operettaların müəllifidir. "Bir qalanın sirri", "Qara daşlar", "Əhməd haradadır?" və s. filmlərə musiqi yazıb. Azərbaycan SSR-in mədəniyyət naziri (1965–1971) işləyib.

**15 may 1930** – Nasir, dramaturq, ədəbiyyatşünas Altay Yusif oğlu Məmmədov (1930 – 15.7.2003) Gəncədə doğulub. "Kişilər", "Yadındamı", "Ulduzlar görüşəndə" və s. pyeslərin müəllifidir.

**15 may 1931** – Teatrşünas, sənətşünaslıq doktoru, professor Mahmud Qara oğlu Allahverdiyev (1931–1998) Gürcüstanın Bolnisi rayonunun İmirhəsən kəndində doğulub.

**15 may 1946** – Əməkdar mədəniyyət işçisi Xalis Xalid oğlu Məmmədov (1946–2021) Qəbələ rayonunun Bum kəndində doğulub. Qəbələdə Tarix-Diyarşünaslıq Muzeyinin yaradıcısı və qırx ilə yaxın direktoru olub.

**16 may 1929** – Əməkdar incəsənət xadimi, skripka ifaçısı Rauf Cəmil oğlu Nərimanbəyli (1929–2021) Bakıda anadan olub.

**16 may 1950** – Xalq artisti Arif Əli oğlu Quliyev (1950 – 7.5.2021) Şirvan şəhərində anadan olub. Musiqili Komediya, Milli Dram, İrəvan teatrlarında işləyib. Filmlərdə, televiziya tamaşalarında maraqlı rollar oynayıb.

**16 may 2022** – Əməkdar incəsənət xadimi Fuad Zülfüqar oğlu Vəlixanov (1.5.1941 – 2022) vəfat edib. Televiziya sahəsində müxtəlif vəzifələrdə çalışıb.

### Dünya

**11 may 1904** – İspan rəssamı Salvador Dali (Salvador Felipe Jacinto Dali; 1904 – 23.1.1989) anadan olub. Sürrealizimin banilərindən biridir.

**11 may 1916** – İspan yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1989) laureatı Kamilo Xose Sela (Camilo Jose Cela; 1916–2002) anadan olub. "Paskual Duartenin ailəsi", "Arı şanı", "Apelsinlər qış meyvələridir" və s. romanların müəllifidir.

**12 may 1842** – Fransız bəstəkarı, lirik operaların müəllifi Jül Massne (Jules Massenet; 1842–1912) anadan olub. Əsərləri: "Verter", "Tais" və s.

**12 may 1907** – Amerika aktrisası Ketrin Hepbern (Katharine Hepburn; 1907–2003) anadan olub. Dörd dəfə "Oskar" mükafatına layiq görülüb.

**13 may 1840** – Fransız yazıçısı Alfons Dode (Alphonse Daudet; 1840–1897) anadan olub. olub.

**13 may 1842** – İngilis bəstəkarı Artur Sallivan (Arthur Seymour Sullivan; 1842–1900) anadan olub.

**14 may 1265** – İtalyan şairi Dante Aligeri (1265 – 14.9.1321) anadan olub. Bəzi mənbələrdə təvəllüdü 30 may göstərilir. İntibah ədəbiyyatının şah əsərlərindən olan "İlahi komediya" poemasının müəllifidir.

**15 may 1862** – Avstriya dramaturqu Artur Şnitsler (Arthur Schnitzler; 1862–1931) anadan olub.

**15 may 1891** – Rus yazıçısı Mixail Bulqakov (1891–1940) Kiyevdə doğulub. Əsərləri: "Usta və Marqarita", "Ağ qvardiya", "İt ürəyi" (nəsr), "Qaçış", "Turbinlər ailəsinin günləri", "Zoykanın mənzili" (dram).

**16 may 1898** – Yaponiya milli kinematoqrafiyasının banilərindən olan rejissor Kendzi Midzoquti (Kenji Mizoguchi; 1898–1956) anadan olub.

**16 may 1915** – İtaliya kinorejissoru Mario Moniçelli (1915–2010) anadan olub. Filmləri: "Polislər və oğrular", "Böyük müharibə" və s.

**Hazırladı: V.Orxan**

# Kitablarımız Qətərdə və Mərakeşdə sərgilənir



9-18 may tarixlərində Qətər Dövlətinin paytaxtı Dohada 33-cü Beynəlxalq Kitab Sərgisi keçirilir.

34 ölkədən 340 nəşriyyatın təmsil olunduğu sərgi bu il "Bilik sivilizasiyalar qurur" mövzusuna həsr edilib. Builki sərginin fəxri qonaq ölkəsi Oman Sultanlığıdır.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Qətərdəki səfirliyimizin dəstəyi ilə ölkəmiz sərgidə xüsusi stendlə təmsil olunur. 18 kvadratmetr sahədə qurulan milli stenddə 101 adda 200-ə yaxın nəşr nümunəsi təqdim olunur.

Milli stendimizdə nümayəndə heyəti tərəfindən Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı, kitab sənəti, o cümlədən Şuşa şəhərinin 2024-cü il üzrə "İslam dünyasının mədəniyyət paytaxtı" seçilməsi barədə sərgi iştirakçılarına və ziyarətçilərə ətraflı məlumat verilir.

Sərginin açılış günündə İndoneziya, Rusiya və İranın Qətərdəki səfirliklərinin nümayəndələri stendimizi ziyarət ediblər.

Doha Beynəlxalq Kitab Sərgisi ilk dəfə 1972-ci ildə keçirilib. İki ildən bir keçirilən sərgi 2002-ci ildən etibarən hər il təşkil olunur.

***

Azərbaycan kitabları Mərakeşdə, Rabat Beynəlxalq Kitab Sərgisində də nümayiş etdirilir. Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Azərbaycan Respublikasının Mərakeş Krallığındakı Səfirliyinin dəstəyi ilə ölkəmiz sərgidə ilk dəfə təmsil olunur.

Ümumilikdə 100 adda 200-yə yaxın kitabın yer aldığı milli stenddə Azərbaycanın tarixi, mədəniyyəti, kitab sənəti, o cümlədən Şuşa şəhərinin 2024-cü il üzrə "İslam dünyasının mədəniyyət paytaxtı" seçilməsi barədə sərginin iştirakçılarına və ziyarətçilərinə geniş məlumat verilir.

Mərakeş Krallığının Gənclər, Mədəniyyət və Rabitə Nazirliyi tərəfindən təşkil olunan sərgiyə 48 ölkə qatılıb.




Sərginin açılış mərasimində rəsmilər, diplomatik nümayəndələr, o cümlədən Azərbaycanın Mərakeşdəki səfiri Nazim Səmədov və yerli media nümayəndələri iştirak ediblər. Milli stendimizi ziyarət edən Mərakeşin gənclər, mədəniyyət və rabitə naziri Məhəmməd Mehdi Bensaidə Azərbaycan mədəniyyəti, tarixi, mədəniyyət paytaxtımız Şuşa şəhəri ilə bağlı məlumat verilib və kitablar hədiyyə edilib.

Mədəniyyət Nazirliyinin Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli və Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin əməkdaşı Ləman Eyyubovanın daxil olduğu Azərbaycan nümayəndə heyəti sərginin açılış günündə bir sıra tədbirlərə qatılıb.

UNESCO-nun fəxri iştirakçı olduğu Rabat Beynəlxalq Kitab Sərgisi mayın 19-dək davam edəcək.

# Ölkəmiz İstanbulda "Oğuz Çepni" günlərində təmsil olunub

Azərbaycan 9-12 may tarixlərində İstanbulda keçirilən "Oğuz Çepni" mədəniyyət günlərində təmsil olunub.




İstanbul Böyükşəhər Bələdiyyəsinin mədəni görüşləri çərçivəsində baş tutan, Anadolu mədəniyyətinin təbliğ olunduğu, dostluq və birliyi tərənnüm edən tədbirdə "TRT Türkü" radiosunda yayımlanan "Azərbaycan rüzgarı" proqramının müəllifi və aparıcısı, İstanbul Universitetinin doktorantı Səidə Ömər də iştirak edib.

Milli musiqi və rəqslərimiz haqqında iştirakçılara məlumat verən həmvətənimiz qeyd edib ki, Azərbaycan xalqını yaxından tanımaq istəyənlər dünya musiqi xəzinəsinin incisi, UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilmiş Azərbaycan muğamları, eləcə də xalq və bəstəkar mahnılarını dinləməlidirlər.

Tədbirin 12 may – "Analar Günü" ərəfəsində keçirildiyinə diqqət çəkən Səidə Ömər zəriflik nümunəsi olan Azərbaycan qadın rəqslərindən də söz açıb: "Bizim milli rəqslərimiz igidliyi təmsil etməklə yanaşı, həm də Azərbaycan qadınına məxsus zəriflik, incəlik və gözəlliyi özündə əks etdirir".

Səidə Ömərin ifasında "Xalabacı" rəqsi tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

# "Avroviziya–2024": İsveçdə qalib İsveçrədir

İsveçin Malmö şəhərində keçirilən 68-ci "Avroviziya" Mahnı Müsabiqəsinin qalibi İsveçrə təmsilçisi Nemo Mettler (Nemo) olub.



Mayın 11-də "Malmö Arena"da gerçəkləşən yarışmanın finalında "The Code" mahnısı ilə çıxış edən İsveçrə təmsilçisi 591 xal toplayaraq rəqiblərini geridə qoyub. İkinci və üçüncü pillələrdə müvafiq olaraq Xorvatiya (547) və Ukrayna (453) təmsilçiləri yer alıblar.

Xatırladaq ki, "Avroviziya–2024"də Azərbaycan təmsilçiləri Fahree və İlkin Dövlətov mayın 7-də birinci yarımfinalda mübarizəni dayandırıblar. Yarışmanın ikinci yarımfinalı mayın 9-da keçirilib.

"Avroviziya–2024"ün final gecəsində ümumilikdə 25 ölkə təmsilçisi səhnəyə çıxıb. Hər yarımfinaldan 10 ölkə finala vəsiqə qazanmış, finalda onlara "Avroviziya" təsisçisi olan böyük beşlik (Fransa, Almaniya, İspaniya, İtaliya, Böyük Britaniya), habelə ev sahibi İsveç qoşulmuşdu. Yəni final iştirakçılarının sayı 26 olmalı idi, amma Niderland təmsilçisi Yost Klayn baş məşq (10 may) öncəsi kulisarxasında şounun çəkiliş qrupu ilə dava-dalaş saldığı üçün təşkilatçılar tərəfindən yarışmadan kənarlaşdırılıb.

Beləliklə, növbəti – 69-cu "Avroviziya" Mahnı Müsabiqəsinə İsveçrə ev sahibliyi edəcək.

Ev sahibliyi sayına görə yarışmanın rekordçusu isə İsveçdir. Bu ölkənin təmsilçiləri 6 dəfə (o cümlədən Mərakeş əsilli İsveç müğənnisi Lorin (Loreen) iki dəfə – 2012-də Bakıda və 2023-də Liverpulda) "Avroviziya" qalibi olublar.

"Avroviziya–2024"ün qalibinə gəlincə, İsveçrə təmsilçisi Nemo musiqiçi kimi yaradıcılığından daha çox gender təfərrüatı ilə mediada özündən söz etdirir. Zahirən kişi cinsinə aid olduğu görünsə də, "Malmö Arena"da səhnəyə qadın libasında çıxan müğənni, əslində, özünü nə ondan sayır, nə də bundan. Özünü qeyri-binar (yalnız kişi və ya yalnız qadın olmayan gender kimliyi) gender təsnifatına aid edir. Üstəlik, o, sənətin çoxdan arxa plana keçdiyi bu yarışmada gender təfərrüatı ilə ad (qələbə) qazanan ilk ifaçı deyil, yəqin sonuncu da olmayacaq.

Yada salaq ki, on il əvvəl, 2014-cü ildə "Avroviziya"nın qalibi Avstriya təmsilçisi – saqqalı-bığlı "xanım" Konçita Vurst olmuşdu...

**V.Kamal**

# Natəvanın abidəsi yenə Fransadadır...

## Erməni havasına oynayan yerli siyasətbazlara inad olaraq

XIX əsr Azərbaycan şairəsi, Qarabağın sonuncu xanı Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın Fransanın Evian-lö-Bən şəhərindən gətirilmiş abidəsi Parisdə, Azərbaycan Səfirliyinin Mədəniyyət Mərkəzinin həyətində yenidən ucaldılıb.



Ölkəmizin Fransadakı səfiri Leyla Abdullayeva abidənin tarixi haqqında məlumat verib. Qeyd edib ki, 2017-ci ildə Azərbaycanın İsmayıllı və Fransanın Evian-lö-Bən şəhərləri arasında imzalanmış dostluq və əməkdaşlıq xartiyası çərçivəsində Evian şəhərində, Leman gölü sahilində "Azərbaycan parkı"nın rəsmi açılış mərasimi olub. Eyni zamanda İsmayıllı şəhəri tərəfindən Xurşidbanu Natəvanın heykəli Evian-lö-Bən şəhərinə hədiyyə edilib. Abidə "Azərbaycan parkı"nda ucaldılıb.

Ancaq 2023-cü il dekabrın 18-də radikal qüvvələr abidəyə qarşı vandalizm aktı törədib. Evian-lö-Bən şəhəri meriyasının qərəzli mövqeyi bir neçə ay davam edib, abidənin bərpası və təmizlənməsi istiqamətində heç bir addım atılmayıb. Həmçinin, meriya gələcəkdə bu abidəyə qarşı vandalizm aktının təkrarlanmayacağına zəmanət vermədiyi üçün Azərbaycan tərəfi həmin abidəni geri götürüb. Qısa zamanda təmizlənmiş və bərpa edilmiş heykəl Parisdə Eyfel qülləsinin yanında yerləşən Azərbaycan Mədəniyyət Mərkəzinin həyətində yenidən ucaldılıb.

Abidənin açılışında Fransada yaşayan azərbaycanlı opera müğənnisi Timur Abdikeyev Üzeyir Hacıbəylinin dahi Azərbaycan şairi Nizami Gəncəvinin sözlərinə yazdığı "Sevgili canan" romansını ifa edib.

Xatırladaq ki, sözügedən vandalizm aktından sonra İsmayıllı Rayon İcra Hakimiyyəti Evian-lö-Bən şəhəri ilə dostluq və əməkdaşlıq xartiyasını ləğv edib.

# "FireLand" Belçikada ənənəvi festivalda

Belçikada fəaliyyət göstərən "FireLand" Azərbaycanlılar Birliyi ölkəmizin Belçika Krallığındakı səfirliyinin dəstəyi ilə Brüsselin Volüve-Sen-Pyer və Etterbek bələdiyyələrinin hər il may ayında birgə təşkil etdiyi ənənəvi festivalda iştirak edib.



Festivalda milli yeməklərin, içkilərin, Azərbaycan mədəniyyəti və incəsənətinə aid kitab və broşürlərin, kəlağayı və aksesuarların yer aldığı Azərbaycan stendi ziyarətçilərin marağına səbəb olub. Stenddə onlara ölkəmiz haqqında məlumatlar verilib.

Festivalda iştirak edən yerli siyasətçilər, partiya nümayəndələri milli təamlarımızın dadına baxıb, Azərbaycanla maraqlanıblar.

"FireLand"ın tərkibində yer alan rəqs qrupunun ifaları da maraqla qarşılanıb. Rəqsləri izləyənlər Azərbaycan stendinə yaxınlaşaraq ölkəmiz barədə məlumat əldə ediblər.

# Azərbaycanın turizm imkanları Cənubi Koreyada nümayiş etdirilib

Cənubi Koreyanın paytaxtı Seulda keçirilən "Seoul International Travel Fair (SITF) – The Korea World Travel Fair (KOTFA)" beynəlxalq sərgisində Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə ölkəmizin turizm imkanları tanıdılıb.




Mayın 9-dan 12-dək davam edən sərgidə müxtəlif turizm məhsulları, o cümlədən ölkəmizin təbiət turizmi potensialı və mədəni irs nümunələri haqqında xarici turizm şirkətləri və sərgi ziyarətçilərinə məlumat verilib, milli şirniyyatların dequstasiyası keçirilib.

Azərbaycanın Koreya Respublikasındakı səfiri Ramin Həsənov da milli stendimizi ziyarət edərək sərginin işi ilə tanış olub.

Həmçinin sərgi çərçivəsində yerli turizm şirkətləri ilə Koreya turizm şirkətləri arasında B2B görüşlər keçirilib, mümkün əməkdaşlıq imkanları müzakirə olunub.

# Tarixdə bu gün

## Olaylar, faktlar (11 – 16 may)



Xronoqraf

### 219 il əvvəl...

**14 may 1805-ci ildə** Rusiya-İran müharibəsi (1804–1813) gedişində birinci Kürəkçay (indiki Goranboy rayonu ərazisi) müqaviləsi bağlanıb. Qarabağ xanlığı Rusiya imperiyasına birləşdirilib. Çar Rusiyasının Qafqaz qoşunlarının komandanı general Pavel Sisianov və Qarabağ xanı İbrahimxəlil xan tərəfindən imzalanan müqavilədə xan ailəsinə varislik əsasında Qarabağda yerli hakimiyyət vəd edilmişdi. Lakin bir il sonra (1806) İbrahimxəlil xan ailəsi ilə birlikdə rus hərbçiləri tərəfindən qətlə yetirildi, Qarabağ xanlığı isə 1822-ci ilədək formal mövcud olduqdan sonra ləğv edildi.

### 212 il əvvəl...



**16 may 1812-ci ildə** Rusiya-Türkiyə (Osmanlı) müharibəsinin (1806–1812) yekunlarına dair Buxarest sülhü imzalanıb. Bessarabiya (indiki Moldovanın bir hissəsi) Rusiyaya birləşdirilib, Türkiyə isə Valaxiya bölgəsini (Rumıniyanın bir hissəsi) əldə edərək Fransa ilə (Napoleon) ittifaqdan çıxıb. Sonuncu məqam Rusiyanın Fransa ilə müharibədə vəziyyətini qismən yaxşılaşdırdı.

### 85 il əvvəl...

**11 may 1939-cu ildə** Uzaq Şərqdə Xalxin-Qol çayı üzərində sovet-monqol və yapon qoşunları arasında döyüşlər başlayıb. Müharibəyə səbəb Yaponiya qüvvələrinin Monqolustanın SSRİ ilə sərhəd bölgələrinə hücumu olmuşdu. Üç aydan çox davam edən döyüşlərdən sonra, avqustun 31-də Yaponiya qüvvələri Monqolustan ərazisini tərk etməli oldular. Yaponiya ilə bağlanan sülh 1941–1945-ci illər müharibəsi dövründə SSRİ-ni Şərq cəbhəsi sarıdan nisbətən arxayın etmişdi.

### 76 il əvvəl...

**14 may 1948-ci ildə** İsrail Dövləti yaranıb. BMT-nin 1947-ci ildə qəbul etdiyi 181 saylı qətnaməyə görə, Fələstin üzərində Britaniyanın protektoratlığı ləğv ediləndən sonra orada iki dövlət – yəhudi və ərəb dövlətləri yaranmalı idi. Lakin Britaniya qoşunları çıxan gün Ben Qurionun sədrliyi ilə Yəhudi Milli Şurası birtərəfli qaydada İsrail Dövlətinin yarandığını elan etdi. Buna etiraz edən Misir, İordaniya, Suriya və İraq İsrailə qarşı müharibəyə başladılar.

### 70 il əvvəl...



**14 may 1954-cü ildə** Haaqada (Niderland) keçirilən BMT konfransında "Hərbi konfliktlər zamanı mədəni abidələrin qorunması haqqında" beynəlxalq konvensiya imzalanıb.

### 32 il əvvəl...

**14-15 may 1992-ci ildə** Azərbaycanda hakimiyyət dəyişikliyi baş verib. 6 mart tarixində Ali Sovetdə istefası qəbul olunmuş Ayaz Mütəllibov mayın 14-də parlamentin qərarı ilə prezident postuna qaytarılıb. Ertəsi gün Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti ələ keçirib. A.Mütəllibov Bakını tərk edərək Moskvaya gedib.

### 30 il əvvəl...

**12 may 1994-cü ildə** Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş – "Bişkek protokolu" qüvvəyə minib. Tərəflər daha sonra beynəlxalq vasitəçilik sayəsində yekun sülh sazişi imzalamalı idilər. Amma ATƏT-in Minsk qrupu formatında 26 il sürən vasitəçilik nəticə vermədi və 2020-ci ildə Azərbaycan hərb yolu ilə torpaqlarını işğaldan azad etdi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 1108
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641